YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
13 dekabr 2025-ci il, şənbə
№ 228 (7055)
Qiyməti 60 qəpik



Milli azadlıqdan şirin nemət yoxdur!




# Ulu Öndərin ideyaları daim yaşayacaq!




# Prezident və birinci xanım Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər



Bax səh. 2

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad ediblər

Bax səh. 2








## Yeni dördillik rəqəmsal strategiya

Bax səh. 3

## Azərbaycan-Macarıstan münasibətləri yeni mərhələdə

Bax səh. 3

## Avropa Bankının "yaşıl maliyyə" dəstəyi...

Bax səh. 4

## Sosial-iqtisadi inkişafın maliyyə təminatı

Bax səh. 5

## Səfirlərin kritik seçimi

Bax səh. 6

## Qərb koalisiyasında səssiz fırtına - "Titanik" yenidən batacaqmı?



Bax səh. 7

## ABŞ NATO-dan çıxarsa...




Bax səh. 2

# Ulu Öndərin ideyaları daim yaşayacaq!

## Prezident və birinci xanım Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər









Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 22 il ötür.

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

x x x

Azərbaycanın dövlətçilik tarixində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xidmətləri bütöv bir epoxanı özündə ehtiva edir. Onun dahiyanə siyasi uzaqgörənliyi, dövlət quruculuğu sahəsində atdığı addımlar, müstəqil Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən qərarları xalqımızın yaddaşında silinməz iz buraxıb. Ulu Öndərin hakimiyyəti illərində ölkəmizin sabitliyə qovuşması, iqtisadiyyatın dirçəldilməsi, ordu quruculuğunun möhkəmləndirilməsi Azərbaycanın gələcək yüksəlişini təmin edən əsas dayaqlara çevrildi.

Xalqımız ağır və taleyüklü dönəmlərdə Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasını dərin minnətdarlıqla xatırlayır. Məhz onun rəhbərliyi illərində Azərbaycan qarşılaşdığı təhlükələrdən xilas oldu, milli özünüdərk gücləndi, müstəqilliyimizin əbədiliyi üçün möhkəm təməllər qoyuldu. Hər il dekabrın 12-də və mayın 10-da minlərlə insanın Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməsi xalqın dahi övladının xatirəsinə əbədi ehtiramının və sədaqətinin bariz ifadəsidir.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Qarabağın azad edilməsi idi. Onun bu arzusu illər sonra öz layiqli davamçısı tərəfindən həyata keçirildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi və əzmkarlığı nəticəsində Ordumuz tarixi Zəfər qazandı, ölkəmizin ərazi bütövlüyü, suverenliyi bərpa olundu, üçrəngli Bayrağımız işğaldan azad edilmiş şəhər və kəndlərimizdə ucaldıldı.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gücünü, həmçinin gələcəyə olan inamını əks etdirir. Azad olunan torpaqlarda yeni həyatın başlanması Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarının davamlılığının və uğurla həyata keçirilməsinin göstəricisidir.

Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu bu gün də ölkəmizin siyasi və iqtisadi tərəqqisinin əsasını təşkil edir. Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırıb, ölkəmizi bölgədə mühüm tərəfdaş və güclü dövlətə çevirib. Dövlətimizin milli maraqlarının qətiyyətlə müdafiə olunması, təhlükəsizlik və inkişaf strategiyasının ardıcıl şəkildə davam etdirilməsi dahi Heydər Əliyev ideyalarının yaşayaraq inkişaf etdiyini göstərir.

Qəti şəkildə demək olar ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin ideyalarına daim sadiq olacaq, onun müəyyənləşdirdiyi inkişaf yolu ölkəmizi daha böyük uğurlara doğru aparmaqda davam edəcək.

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad ediblər










Dekabrın 12-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# Yeni dördillik strategiya

## Strategiya Azərbaycanı regional rəqəmsal mərkəzə çevirməyi hədəfləyir



Prezident İlham Əliyev "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026-2029-cu illər üçün Strategiya"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Strategiyanın əsas hədəfləri ölkədə sahibkarlıq sahəsində rəqəmsal infrastrukturun genişləndirilməsi və transformasiyanın sürətləndirilməsi, iqtisadiyyatın rəqabətliliyinin yaxşılaşdırılması, innovasiya əsaslı inkişafın təşviqi, rəqəmsal bacarıqların gücləndirilməsi, eləcə də rəqəmsal iqtisadi fəaliyyətlərin dayanıqlığının artırılmasıdır.

Strategiya informasiya texnologiyalarının və 4-cü Sənaye İnqilabının əsas Texnologiyalarının - süni intellekt, böyük verilənlər, blokçeyn, bulud texnologiyaları, "ağıllı şəhər" həlləri və s. sürətli inkişafı şəraitində rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşdırılması, onun dayanıqlığının təmin edilməsi və bütün iqtisadi sahələrdə rəqəmsal transformasiyanın geniş tətbiqi prinsiplərinə əsaslanır. Bu ssenariyə əsasən, iqtisadiyyatın inkişaf tələblərinə uyğun rəqəmsal infrastrukturun müasirləşdirilməsi, yeni rəqəmsal bizneslərin inkişafının təşviqi, startap və innovasiya yönümlü ekosistemin dəstəklənməsi, iqtisadi qərarvermədə data əsaslı analitikanın tətbiqi, beynəlxalq rəqəmsal inteqrasiyanın daha geniş tətbiqi, həmçinin yaşıl və dayanıqlı rəqəmsal iqtisadiyyatın inkişafı prioritet istiqamətlər kimi müəyyən edilib.

### Dünyada rəqəmsal sərmayələr 2035-ci ilədək 1 trilyon dolları ötəcək

Dünya artıq 4-cü Sənaye İnqilabı mərhələsinə daxil olub, son illərdə bu transformasiya daha da dərinləşib. Rəqəmsallaşma iqtisadi artımın, idarəetmə mexanizmlərinin və sosial münasibətlərin əsas müəyyənedici amilinə çevrilib. Beynəlxalq təşkilatların son hesabatları bu reallığı təsdiq edir. BMT-nin "Rəqəmsal İqtisadiyyat Hesabatı 2024"ə görə, rəqəmsal texnologiyalar qlobal iqtisadi inkişafda həlledici rol oynayır. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) "Rəqəmsal İqtisadiyyat İcmalı 2024" hesabatına əsasən, üzv ölkələrdə İKT sektoru 2013-2023-cü illərdə orta hesabla illik 7,6 faiz böyüyərək ümumi iqtisadi artımı dəfədən çox üstələyib.

Dünya İqtisadi Forumunun yenilənmiş hesabatına əsasən, 2027-ci ilə qədər mövcud bacarıqların 44 faizi yenilənməlidir. Stanford Universitetinin "AI Index Report 2025" sənədinə görə, 2024-cü ildə respondent təşkilatların 78 faizi süni intellekt texnologiyalarından istifadə etmiş, yaradıcı AI sahəsinə qoyulan şəxsi investisiyalar isə 33,9 milyard dollar olub. Bu isə rəqəmsal iqtisadiyyatın inkişafında insan kapitalının hansı dərəcədə əhəmiyyətli rola malik olduğunu göstərir. Dünya İqtisadi Forumunun da dəyərləndirmələri təsdiq edir ki, yaradıcı düşüncə, analitik yanaşma və texnoloji savadlılıq gələcək illərdə ən çox tələb olunan bacarıqlardır. Ayrı-ayrı ölkələrin təcrübələri də bunu sübut edir. Böyük Britaniya rəqəmsal bacarıqları dövlət strategiyasının əsas prioritetinə çevirib, Sinqapur isə işçi qüvvəsinin bacarığını artırmaq üçün "sənaye transformasiya xəritələri" tətbiq edir. Bununla yanaşı, innovasiya və sahibkarlıq ekosisteminin inkişafı qlobal səviyyədə aparıcı tendensiya olaraq qalır. OECD-nin məlumatına əsasən, inkişaf etmiş ölkələrdə şirkətlər illik gəlirlərinin orta hesabla 5 faizini yeni bizneslərin qurulmasına yönəldir. ABŞ güclü startap ekosistemi və innovasiya mühiti ilə, Almaniya isə koordinasiya olunmuş rəqəmsal siyasəti və elmi-tədqiqat infrastrukturu ilə seçilir.

Texnoloji infrastruktur və qabaqcıl texnologiyalara sərmayələr də rəqəmsal transformasiyanın həlledici şərtlərindəndir. 2021-ci ildə bu sahəyə qlobal sərmayələrin həcmi 650 milyard dollar təşkil edir, 2035-ci ilədək isə onun 1 trilyon dollarını üstələyəcəyi proqnozlaşdırılır. "Digital 2025" hesabatına görə, e-ticarət illik 15-25 faiz artım tempi ilə inkişaf edib, fərdiləşdirilmiş xidmətlər, mobil ödənişlər və elektron pul kisələrinə tələbat əhəmiyyətli dərəcədə yüksəlib.

### İnsan kapitalına əsaslanan cəmiyyət quruculuğu

Rəqəmsallaşma müasir dövrümüzün dinamik inkişaf edən və bu və ya digər formada milli iqtisadiyyatlara və cəmiyyətlərə öz təsirini göstərən ayrılmaz prosesinə çevrilib. Son illər ərzində ölkəmizdə "Elektron hökumət"in formalaşması, dövlət orqanlarının informasiya sistemləri arasında xüsusi infrastruktur vasitəsilə informasiya mübadiləsinin aparılması, "Elektron hökumət"in fəaliyyəti üçün vacib əhəmiyyət kəsb edən dövlət informasiya sistemləri və ehtiyatlarının yaradılması istiqamətində mühüm işlər görülüb, müasir informasiya-kommunikasiya texnologiyalarının, telekommunikasiya qurğularının və innovasiyaların geniş tətbiqi nəticəsində qabaqcıl texnoloji infrastruktur qurulub. Maliyyə sektorunda 30-dan çox "Fin-Tech" subyekti fəaliyyət göstərməkdədir və bu, ölkədə nağdsız ödənişlərin payının sürətlə artmasına təkan verib. Mövcud infrastrukturun bazasında iqtisadi inkişafın daha yeni tələbi olan "Rəqəmsal hökumət"ə keçidin sürətləndirilməsi üçün əlavə imkanlar səfərbər edilib.

Beləliklə, beynəlxalq təcrübə göstərir ki, uğurlu rəqəmsal iqtisadiyyat strategiyası dövlət, biznes və cəmiyyətin birgə fəaliyyətini nəzərdə tutan vahid yanaşmaya əsaslanmalıdır. Texnoloji inkişafın iqtisadi tərəqqidə hansı əhəmiyyət daşıdığını Prezident İlham Əliyev dəfələrlə bəyan edib. Dövlət başçısı bu günlərdə Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncağında insan kapitalına yatırımların texnoloji inkişafa açılan qapı kimi səciyyələndirdi, yeni texnologiyaların aktiv tətbiqinin və süni intellektin inkişaf etmiş cəmiyyətlərin hərəkətverici drayverinə çevrildiyini xatırlatdı. Vurğulandığı kimi, ölkəmizdə də bu sahədə zəruri infrastrukturlar qurulub. Startaplar, bulud provayderləri ekosistemi formalaşıb, "Elektron hökumət" ehtiyatları cəmiyyətin bütün seqmentlərində tam təmin olunub, "Rəqəmsal dövlət" konsepti üzrə ən son həllərin tətbiqi işləri aparılır.

### "Yeni Nəsil Texnologiyalar Mərkəzi" yaradılacaq

Ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması məqsədilə ən qabaqcıl rəqəmsal şirkətlərlə təcrübə mübadiləsi həyata keçirilir, rəqəmsal sənayeyə sərmayələr yatırılır. Bu prosesdə daha böyük nailiyyətlər əldə etmək üçün dövlət-özəl-elm üçbucağının qurulması olduqca vacibdir. Xüsusilə də, biznes cəmiyyəti bu proseslərin hərəkətverici qüvvəsi olmalıdır.

Rəqəmsal iqtisadiyyatın inkişafına dair strategiya sənədində də əks olunduğu kimi bu prosesdə elm və iqtisadi blok arasında koordinasiyalı fəaliyyətin gücləndirilməsi nəzərdə tutulur. Bu məqsədlə ali təhsil müəssisələrində rəqəmsal bacarıqlara və qlobal səviyyədə tanınan rəqəmsal yönümlü sertifikatlaşdırma standartlarına əsaslanan təhsil proqramlarının hazırlanması, İKT üzrə karyera quran kadrları həvəsləndirmək üçün illik İKT təqaüd proqramlarının təsis edilməsi, rəqəmsallaşma istiqaməti üzrə elmi - tədqiqat işlərinin doktorantura səviyyəsində dəstəklənməsi üçün əhatəli tədbirlər həyata keçiriləcək. "Yeni Nəsil Texnologiyalar Mərkəzi" və "Rəqəmsal həllər və xidmətlər platforması" yaradılacaq, "Rəqəmsal İqtisadiyyatın İnkişafına Dəstək Proqramı" hazırlanacaq. Bu prosesdə nəhəng dünya texnologiyaları şirkətləri ilə sıx əməkdaşlıq qurulacaq, qlobal İKT sənayesinin liderləri olan "Cisco", "Oracle", "Microsoft" və digərləri ilə təlim düşərgələri qurulacaq.

### "Rəqəmsal Əkiz" modelləri tətbiq olunacaq

Biznesin rəqəmsal iqtisadiyyatda fəal rolunun artırılması üçün kiçik və orta sahibkarlıq subyektlərinin rəqəmsal transformasiyasının dəstəklənməsi, onlara maliyyə dəstəyi mexanizmlərinin təqdim olunması və xidmətlərin mərkəzləşdirilməsi məqsədilə "KOB evləri" genişləndiriləcək, rəqəmsal bazarlara çıxış əldə etmiş KOB-ların sayı 200-ə çatdırılacaq. Startapların və tədqiqat mərkəzlərinin sənaye ilə əlaqələndirilməsi, onların real bazar təcrübəsinə, resurslara və mütəxəssis dəstəyinə əlçatanlığını təmin edən mexanizmlərin və rəqəmsal iqtisadiyyat ekosisteminin formalaşmasına dəstək məqsədilə vahid internet resursunun yaradılması nəzərdə tutulur.

Motivasiya tədbirləri çərçivəsində rəqəmsal startapların sayı 250-yə, rəqəmsal transformasiya proqramlarında iştirak edən müəssisələrin sayı 300-ə çatdırılacaq. Bölgələrdə və əsas iqtisadi əməliyyatlarda "Rəqəmsal Əkiz" modellərinin tətbiqi, işğaldan azad edilmiş ərazilərdə və Naxçıvanda müəssisələr üçün rəqəmsal çərçivələr infrastrukturu qurulacaq.

### "Amazon" və "AliExpress"lə birgə layihələr

Xarici investorlarla əlaqələr də yeni müstəvidə təşkil olunacaq, xarici investisiyaların cəlbi və innovasiya mühitinin yaxşılaşdırılması məqsədilə prosedurların sadələşdirilməsi, əlverişli investisiya ekosisteminin gücləndirilməsi, ÜDM-də özəl xarici maliyyələşmənin payının davamlı artırılması və rəqəmsal ticarətin inkişafı və yerli müəssisələrin xarici bazarlara çıxışı üçün beynəlxalq e-ticarət platformaları "Amazon", "AliExpress" ilə əməkdaşlığın genişləndirilməsi də strateji hədəf istiqamətlərində yer alır.

Beləliklə, strategiyanın icrası nəticəsində rəqəmsal xidmətlərin keyfiyyətinin və əlçatanlığının yüksəldilməsi, iqtisadi sahələrdə rəqəmsal texnologiyaların tətbiq səviyyəsinin genişləndirilməsi və iqtisadiyyatın rəqəmsal sektorunun ÜDM-də payının artırılması hədəflənir. Bu hədəfin digər strateji məqsədi Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsidir.

**E.CƏFƏRLİ**

# Azərbaycan-Macarıstan münasibətləri yeni mərhələdə

Azərbaycanın Mərkəzi və Şərqi Avropa ölkələri ilə münasibətlərində Macarıstanla əməkdaşlıq xüsusi yer tutur. Dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq ruhunda inkişaf edən ikitərəfli əlaqələrin daha da genişləndirilməsi hər iki tərəf üçün prioritet hesab olunur. Prezident İlham Əliyevin xarici siyasət kursunda Macarıstanla yaradılmış güclü siyasi dialoq və strateji əməkdaşlıq sayəsində əlaqələr yeni mərhələyə daxil olub. 2014-cü ildə imzalanmış "Azərbaycan ilə Macarıstan arasında strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannamə", eləcə də 2023-cü ildə qəbul edilən "Azərbaycan ilə Macarıstan arasında genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" münasibətləri ən yüksək zirvəyə yüksəldib.

### TDT müstəvisində əlaqələr güclənir

Hər zaman müstəqillik və suverenlik prinsiplərindən çıxış edən ölkələrimiz müxtəlif sahələrdə uğurla əməkdaşlıq edirlər. Yeni geosiyasi və geoiqtisadi reallıqlar şəraitində Azərbaycan Macarıstanın enerji təhlükəsizliyinin təmin olunmasında yer alan dövlətə çevrilib. Öz növbəsində dost ölkə respublikamızın Avropa İttifaqı ilə inteqrasiyasının genişlənməsinə güclü siyasi dəstək göstərir. Ölkələrimiz arasında əlaqələrin güclənməsində liderlərin dostluq münasibətləri də xüsusi rol oynayır.

Azərbaycanla Macarıstanın münasibətləri isə həm dövlət maraqlarına, həm cəmiyyətlərin qarşılıqlı rəğbətinə, həm də tarixə bağlıdır. Türk kökənliyi iki ölkəni və xalqı bir araya gətirən ən etibarlı bağdır. Azərbaycan getdikcə qlobal güc mərkəzlərindən birinə çevrilməkdə olan Türk Dövlətləri Təşkilatının (TDT) əsasının qoyulmasında mühüm rol oynayan dövlətlərdən biridir və hazırda da qurumun funksionallığının artmasına sanballı töhfələr verir. Macarıstan isə 2018-ci ildən etibarən TDT-da müşahidəçi statusuna malikdir və son illərdə təşkilatla əlaqələrini daha da gücləndirib. Xatırladaq ki, bu ilin may ayında Prezident İlham Əliyev TDT-nin Macarıstanda keçirilən qeyri-rəsmi sammitində, bu ölkənin Baş naziri Viktor Orban isə oktyabrda təşkilatın ölkəmizdə baş tutmuş 12-ci Zirvə Görüşündə iştirak ediblər. Bütün bunlar iki ölkə arasında həm ikitərəfli, həm də beynəlxalq platformalar müstəvisində genişlənən əlaqələrin göstəricisidir.

### Ceyhun Bayramovun Macarıstan səfəri...

Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov bu günlərdə Macarıstanda işgüzar səfərdə olub. Dekabrın 11-də Ceyhun Bayramov Macarıstan Prezidenti Tamaş Şuyokla görüşüb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, görüş zamanı Azərbaycan və Macarıstan arasında dostluq, qarşılıqlı hörmət və sıx əməkdaşlığa əsaslanan strateji tərəfdaşlığın inkişafı məmnunluqla qeyd edilib.Yüksəksəviyyəli qarşılıqlı səfərlərin, daimi siyasi dialoqun, xalqlar arasında təmasların, ölkələrimiz arasında humanitar əlaqələrin vacibliyi vurğulanıb. Bununla yanaşı, sentyabrın 5-də Macarıstanın paytaxtı Budapeşt şəhərində Azərbaycan və Macarıstan hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın XI iclasının nəticələrinin müsbət inkişafına əlavə təkan verdiyi bildirilib.





Görüşdə Macarıstanın xüsusilə enerji sahəsi olmaqla, ölkəmizdən 3-cü böyük investor olduğu qeyd edilib, eləcə də, əczaçılıq və bir sıra digər istiqamətlərdə sərmayə planları nəzərdən keçirilib. Hava nəqliyyatı sahəsində əməkdaşlığın inkişafından məmnunluq qeyd edilib, yaşıl enerji, tranzit-kommunikasiya, təhsil təqaüdlərinin verilməsi və digər istiqamətlərdə işlərin əhəmiyyəti diqqətə çatdırılıb. Beynəlxalq platformalar - BMT, Türk Dövlətləri Təşkilatı, Avropa institutları çərçivəsində qarşılıqlı etimada və dəstəyə əsaslanan əməkdaşlığın daha da gücləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Görüş zamanı, həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər müzakirə olunub.

### Azərbaycan-Macarıstan Strateji Dialoqunun üçüncü iclası keçirilib

Azərbaycanın XİN başçısı Macarıstana səfəri çərçivəsində bu ölkənin xarici işlər və ticarət naziri Peter Siyarto ilə də görüşüb. Nazirlər arasında təkbətək görüşdən sonra hər iki tərəfdən nümayəndə heyətlərinin iştirakı ilə Azərbaycan-Macarıstan Strateji Dialoqunun üçüncü iclası keçirilib. İclas zamanı iki ölkə arasında mövcud əməkdaşlığın vəziyyəti, həyata keçirilən birgə layihələr, habelə ikitərəfli və çoxtərəfli formatlarda gələcək əməkdaşlıq perspektivləri ətraflı müzakirə olunub.

Azərbaycan-Macarıstan münasibətlərinin dostluq, əməkdaşlıq və genişləndirilmiş strateji tərəfdaşlıq ruhunda inkişaf etdiyi, dövlət və hökumət başçıları səviyyəsində müntəzəm təmasların, yüksək səviyyəli qarşılıqlı səfərlər və davamlı siyasi dialoqun münasibətlərin dərinləşməsində mühüm rol oynadığı vurğulanıb. Son 30 il ərzində ikitərəfli ticarət və investisiyalar istiqamətləri üzrə əməkdaşlığın inkişaf dinamikası nəzərdən keçirilib. İqtisadi tərəfdaşlığın mövcud potensiala tam cavab verməsi üçün birgə səylərin artırılması olduğu bildirilib, bu çərçivədə Azərbaycan-Macarıstan İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyasının iclaslarının əhəmiyyəti diqqətə çatdırılıb. Ənənəvi və bərpaolunan enerji, istehsal, əczaçılıq, ətraf mühitin qorunması, rəqəmsallaşma işləri, nəqliyyat və logistika sahələrində yeni tərəfdaşlıq imkanları müzakirə edilib. Macarıstanın Azərbaycanın enerji sektoruna investisiyaları və rolu məmnunluqla qeyd olunub.

Eləcə də, humanitar sahədə əməkdaşlıqdan məmnunluq ifadə olunub, azərbaycanlı və macar tələbələr üçün nəzərdə tutulan təqaüd proqramları yüksək qiymətləndirilib, iki ölkənin aparıcı universitetləri arasında əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və qarşılıqlı olaraq dil və mədəniyyət mərkəzlərinin yaradılmasının əhəmiyyəti vurğulanıb. Beynəlxalq əməkdaşlıq və regional təhlükəsizlik məsələləri üzrə fikir mübadiləsi aparılıb. BMT, bir sıra Avropa institutları və Türk Dövlətləri Təşkilatı çərçivəsində Azərbaycan və Macarıstan arasında mövcud sıx və konstruktiv əməkdaşlıq məmnunluqla qeyd edilib. Macarıstanın Türk Dövlətləri Təşkilatına və bütövlükdə türk dünyasının güclənməsinə verdiyi töhfə xüsusi vurğulanıb. Beynəlxalq təşkilatlar çərçivəsində və iki ölkənin namizədliklərinə qarşılıqlı dəstəyə görə təşəkkür ifadə olunub.

C.Bayramov Ermənistanla sülh və dövlətlərarası münasibətlərin qurulması istiqamətində atılan son addımlar barədə həmkarını məlumatlandırıb. Cari ilin avqustunda tarixi Vaşinqton Zirvəsində əldə olunmuş razılaşmaların sülhə aparan yolda mühüm mərhələ olduğu bildirilib. Eyni zamanda, yekun sülh sazişinin imzalanması üçün Ermənistanın konstitusiya səviyyəsində Azərbaycana qarşı ərazi iddialarının ləğvinin vacibliyi vurğulanıb.

### Anlaşma Memorandumu imzalanıb

Görüş zamanı işğaldan azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə danışılıb. Macarıstan tərəfinin Cəbrayıl rayonunun Soltanlı kəndinin bərpası və digər layihələrdə iştirakı yüksək qiymətləndirilib. Mina təhlükəsinin bərpa proseslərinə və keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıdışına ciddi maneə yaratdığı diqqətə çatdırılıb.

Daha sonra nazirlər Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Macarıstanın Enerji Nazirliyi arasında Ətraf mühitin qorunması üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu sənədini və Azərbaycan-Macarıstan Strateji Dialoqunun 3-cü iclasının protokolunu imzalayıblar.

Sonda birgə mətbuat konfransı zamanı nazirlər iclasın nəticələri barədə bəyanatlarla çıxış edib, media nümayəndələrinin suallarını cavablandırıblar.

**Nardar BAYRAMLI**

# Aşqabadda beynəlxalq forum keçirilib

## Azərbaycanı Baş nazir Əli Əsədov təmsil edib

**Dekabrın 12-də Aşqabadda "Beynəlxalq sülh və etimad ili (2025)", Beynəlxalq Neytrallıq Günü və Türkmənistanın daimi neytrallığının 30 illiyinə həsr olunmuş beynəlxalq forum keçirilib. Tədbirdə Azərbaycanı Baş nazir Əli Əsədov təmsil edib.**



### Əli Əsədov Sərdar Berdiməhəmmədov və İrakli Kobaxidze ilə görüşüb

Aşqabada işgüzar səfər çərçivəsində Əli Əsədov əvvəlcə Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşüb. Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını və Türkmənistanın daimi neytrallığının 30 illiyi münasibətilə təbriklərini bu ölkənin dövlət başçısına çatdırıb. Sərdar Berdiməhəmmədov Prezident İlham Əliyevin salamlarına və təbriklərinə görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan ilə Türkmənistan arasında siyasi dialoqun yüksək səviyyədə olduğu vurğulanıb, qarşılıqlı maraq doğuran sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Azərbaycanın Baş naziri səfər çərçivəsində, həmçinin Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşüb. Ə.Əsədov Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını Gürcüstanın Baş nazirinə çatdırıb. İ.Kobaxidze Prezident İlham Əliyevin salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Azərbaycan dövlətinin başçısına çatdırmağı xahiş edib.

Görüşdə Azərbaycan-Gürcüstan strateji tərəfdaşlığının ticarət-iqtisadi, investisiya, nəqliyyat-tranzit, neft-qaz, yaşıl enerji, humanitar və digər sahələrdə inkişafından məmnunluq ifadə olunub. İki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gündəliyində duran aktual məsələlərə xüsusi diqqət yetirilib.



### Baş nazir: Azərbaycan Türkmənistanın neytrallıq siyasətinə hörmətlə yanaşır

"Beynəlxalq sülh və etimad ili (2025)", Beynəlxalq Neytrallıq Günü və Türkmənistanın daimi neytrallığının 30 illiyinə həsr olunmuş beynəlxalq forumun plenar iclasında Azərbaycanın Baş naziri Əli Əsədov çıxış edib. Ə.Əsədov bildirib ki, Azərbaycan Türkmənistanın BMT tərəfindən tanınan daimi neytrallıq siyasətinə böyük hörmətlə yanaşır. Ölkəmizin neytrallıqla bağlı Türkmənistan tərəfindən BMT-də irəli sürülən qətnamələri daim dəstəklədiyi və "Beynəlxalq sülh və etimad ili - 2025" qətnaməsinə həmmüəllif qismində qoşulduğu bildirilib.

### Ölkəmiz Neytrallıq Universitetinin yaradılmasını dəstəkləyir

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Türkmənistanın BMT-nin himayəsi altında Neytrallıq Universitetinin yaradılması ilə bağlı təşəbbüsünü də yüksək qiymətləndirir və universitetin işində fəal iştirak etməyə hazırdır. Qeyd olunub ki, Azərbaycan və Türkmənistan BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatının fəal üzvləridir və hər iki ölkə Hərəkatın dialoq və həmrəylik prinsiplərinə sadiqliyini nümayiş etdirir.

Azərbaycan-Türkmənistan əlaqələrinə toxunan Baş nazir iki ölkə arasında dərin tarixi köklərə, mənəvi və mədəni dəyərlərə söykənən ənənəvi dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu qeyd edib. Dövlətlərarası münasibətlərin son illərdə dinamik inkişaf yolu keçdiyi diqqətə çatdırılıb. Bildirilib ki, iki ölkə liderləri arasında son dövrdə baş tutmuş qarşılıqlı səfərlər və görüşlər ikitərəfli münasibətlərdə yeni səhifə açıb, onları strateji tərəfdaşlığın keyfiyyətcə yeni səviyyəsinə yüksəldib. Bu kontekstdə cari ilin avqust ayında Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana işgüzar səfərinin önəmi xüsusi qeyd edilib. Səfər çərçivəsində Türkmənistan, Azərbaycan və Özbəkistan arasında keçirilən yüksəksəviyyəli görüşün regional əməkdaşlığın genişləndirilməsi və çoxşaxəli qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi üçün mühüm platformaya çevrildiyi diqqətə çatdırılıb.



Həmçinin iyul ayında Türkmənistanın Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfərinin, səfər çərçivəsində Füzuli və Şuşa şəhərlərini ziyarət etməsinin əhəmiyyəti vurğulanıb. Eyni zamanda, cari ilin oktyabr ayında Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü çərçivəsində Füzulidə təməli qoyulan məscidin inşası ilə bağlı təşəbbüsə görə Türkmənistan tərəfinə minnətdarlıq ifadə olunub.

Ə.Əsədov Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasındakı münasibətlər barədə də bəhs edib. Bu baxımdan, Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı qismində qəbul edilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

Qeyd edək ki, Baş nazir Əli Əsədov Aşqabadda Neytrallıq Abidəsinin önünə gül dəstəsi qoyub. Baş nazir ölkəmizin Türkmənistandakı səfirliyinə də gedərək Ümummilli Lider Heydər Əliyevin buradakı büstü önünə gül dəstəsi düzüb, Ulu Öndərin xatirəsini ehtiramla yad edib.

*Nardar BAYRAMLI*

# Avropa Bankının "yaşıl maliyyə" dəstəyi...

## AYİB Azərbaycanda 100 milyon dollar dəyərində proqrama sərmayə ayırıb

Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) Azərbaycana "yaşıl iqtisadiyyat"ın maliyyələşdirilməsi üçün 100 milyon dollar (85,6 milyon avro) həcmində dəstək proqramını təsdiqləyib. "Yaşıl İqtisadiyyatın Maliyyələşdirilməsi"adlanan proqram (Green Economy Financing Facility) çərçivəsində enerjinin səmərəliliyi, bərpaolunan enerji infrastrukturunun qurulması, resurslardan səmərəli istifadə və iqlim dayanıqlığı sahəsində layihələrin həyata keçirilməsində özəl şirkətlərin maliyyə ehtiyaclarını təmin edəcək. Proqram Azərbaycanda "yaşıl maliyyələşdirmə" mexanizmlərinin tətbiqi üzrə pilot təşəbbüs olmaqla, təmiz enerji və dayanıqlı inkişaf hədəflərinə nail olmasına töhfə verəcək.




Avropa Bankının açıqlamasına görə, 2024-cü ilin noyabrında Bakıda keçirilən COP29 toplantısında Azərbaycanın "yaşıl iqtisadiyyat"a olan marağı və bu prosesdə biznes və özəl sektorun xüsusi təşəbbüskarlığı "yaşıl əməkdaşlıq" üçün imkanları artırıb. Bank Azərbaycan biznes icmasının "yaşıl layihələrə" və yeni texnologiyaların tətbiqində motivasiyasını artırmaq üçün dəstək vermək qərarına gəlib.

Bu maliyyə dəstəyi AYİB-in "yaşıl maliyyələşdirmə" strategiyası çərçivəsində beşillik layihəsidir. Bankın açıqlamasına əsasən, "yaşıl maliyyə" banklara, mikromaliyyə institutlarına və lizinq şirkətlərinə ayrılacaq. Həmin qurumlar isə yerli təchizatçı və əlaqələndirici kimi özəl şirkətlərə, kiçik və orta biznesə, korporativ borcalanlara, eləcə də pərakəndə müştərilərə və ev təsərrüfatlarına ekoloji yönümlü kreditlərin verilməsini təmin edəcək. Dəstək proqramında iştirak edən şirkət və təsərrüfatlar 3 milyon dollara qədər texniki yardım paketi əldə edə biləcəklər. Buraya layihənin idarə edilməsi, yeni maliyyə məhsullarının hazırlanması, marketinq və təlimləri üzrə xərclər daxildir. Layihənin icrası üçün isə ödənişlər 4 milyon dollar nəzərdə tutulub.

**Avropa Bankı "Qara dəniz" kabelini dəstəkləyir**

Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda "yaşıl enerji" sektorunun inkişafına dəstəyinin əsas səbəblərindən biri respublikamızda bərpaolunan enerji növlərinin istehsalının daha da artırılmasının təşviqidir. Məlumdur ki, regionda yeni nəhəng marşrut - "Qara dəniz kabeli" və ya "Xəzər-Qara dəniz-Avropa" və "Azərbaycan-Mərkəzi Asiya-Avropa" "yaşıl enerji" dəhlizi yaradılmaqdadır. Bu dəhlizə Avropa İttifaqının (Aİ) marağı hədsiz böyükdür. Aİ-nin tanınmış maliyyə institutlarından biri kimi AYİB də bu prosesdə dəstəkləyici rol oynayır. AYİB-in Türkiyə və Qafqaz üzrə icraçı direktoru Elisabetta Falcetti bir müddət əvvəl ölkəmizdə olarkən Azərbaycanın "yaşıl enerji" dəhlizlərinin yaradılması istiqamətində atdığı addımları yüksək qiymətləndirib, eyni zamanda, COP29 ilə bağlı təşəbbüsləri, enerji sahəsində planlaşdırılan tədbirlərin bütün dünya ölkələri üçün əhəmiyyətinə toxunub.

Avropa Bankının regional direktoru Azərbaycanla energetika sektorunda mövcud əməkdaşlığın vəziyyətinin müsbət səmərə verməsinə diqqət çəkərək bankın bərpa olunan enerji mənbələrinin istehsalı və nəqli, aşağı karbonlu enerjiyə keçid, "yaşıl texnologiyalar" sahəsində layihələrin icrası və gələcək əməkdaşlıqda "yaşıl enerji"yə xüsusi önəm veriləcəyini xatırladıb. Bankın maliyyə dəstəyi ilə həyata keçirilən Qobustan Günəş Elektrik Stansiyası ilə yanaşı, digər energetika müəssisələrinin yaradılmasında maliyyə tərəfdaşlığının davam etdiriləcəyi istisna edilmir.

**AYİB 8 külək və günəş elektrik stansiyasının inşasına kredit ayıracaq**

"Yaşıl enerji"yə keçidi enerji siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən etmiş Azərbaycan hökuməti bu sahəyə birbaşa yerli sərmayələr yatırmaqla beynəlxalq donorlar, xarici investorlar və maliyyə institutları ilə də sıx əməkdaşlıq edərək onların sərmayələrini də cəlb etməyə çalışır. Onlardan biri olan Avropa Bankı bərpaolunan enerji və regional "yaşıl enerji" dəhlizinin həyata keçirilməsində maliyyə donorluğuna razılıq verib. AYİB 2027-ci ilədək 8 külək və günəş elektrik stansiyasının istismara hazırlanmasına kreditlər ayıracağını bildirib.

Avropa Yenidənqurma və İnkişaf Bankının ötən il açıqladığı "Aşağı karbonlu hidrogen iqtisadiyyatı bazar araşdırması"na dair hesabatında da Azərbaycanın yaşıl hidrogen istehsalının iqtisadi cəhətdən səmərəli ölkə olması, eləcə də regional enerji bazarlarına ixracda və regionda yeni yaradılan çoxşaxəli ixrac marşrutlarında strateji mövqeyə və yerə malik olması öz əksini tapıb. Hesabata əsasən, Azərbaycan 2026-cı ilədək ümumi enerji qoyuluşunda bərpaolunan enerji mənbələrinin payının 24 faizə, qədər çatdırılmasında maraqlıdır. Həmçinin məşhur Paris anlaşmasına görə, rəsmi Bakı bu müddətdə Azərbaycan atmosferə buraxılan CO2-nin həcminin bir faiz bəndi həcmində azaldılmasını da öhdəlik kimi götürüb. AYİB Azərbaycanı "yaşıl enerji" quruculuğunda qətiyyətli və dönməz iradə əks etdirən tərəfdaş hesab edir. "Yaşıl enerji"yə davamlı sərmayə yatıracağını bəyan edən bank COP-29 çərçivəsində Azərbaycanla iqlim dəyişikliyi ilə bağlı tədbirlərdə də birgə partnyorluğun artırılacağını vurğulayıb.

*ELBRUS CƏFƏRLİ*

# Bakı qışa hazırdırmı?

Qış qapının ağzındadır. Qarşıdan qarlı, şaxtalı günlər gəlir. Adətən, qış aylarında şəhər təsərrüfatının işi birə beş artır. Buna görə də müvafiq qurumlar müxtəlif xidmətlərə artan tələbatı qarşılamaq və yarana biləcək hər hansı bir fövqəladə hadisənin öhdəsindən gəlmək üçün qış hazırlıqlarını əvvəlcədən görürlər. Bəs bu il paytaxtımız qışa necə hazırlaşıb? Bu sualla ayrı-ayrı şəhər təsərrüfatlarına müraciət etdik. Onların cavablarını təqdim edirik.

**Küçələrin qardan təmizlənməsində çətinliklər yaşanmayacaq**

"Yeni Azərbaycan"ın sorğusuna cavab olaraq Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən redaksiyaya göndərilən məlumatda paytaxtda qışa hazırlıq tədbirlərinə xeyli müddət bundan əvvəl başlanıldığı bildirilir. Vurğulanır ki, qışa hazırlığın vəziyyəti ilə bağlı şəhər icra hakimiyyətində keçirilən müşavirədə verilən tapşırıqlara uyğun olaraq noyabrın ikici yarısından etibarın şəhərin rayonlarında kommunal-təsərrüfat xidmətlərinin, idarə və təşkilatların, təhsil müəssisələrinin, özəl sektorun nümayəndələrinin iştirakı ilə müşavirələr keçirilib.

Müşavirələrin əsas məqsədi rayon xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığın vəziyyətinin araşdırılması, bu zaman görülməsi zəruri olan işlərin müzakirə edilməsi olub. Müşavirələrdə Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdirləri, şəhərin kommunal və digər xidmətlərinin rəhbərləri də iştirak ediblər.

Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hər bir rayona cavabdeh şəxs təyin edilib, həmin şəxslər yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birgə rayonlarda qış mövsümünə hazirlığı, verilən tapşırıqların və görülən işlərin icra vəziyyətini yoxlayırlar.

Qış aylarında güclü qar yağması etimalı ilə əlaqədar rayon icra hakimiyyətlərində qışa hazırlıqla bağlı yaradılan qərargahlar, kommunal və təsərrüfat xidmətləri və aidiyyəti təşkilatların rəhbərləri həmin günlərdə üzərilərinə düşən vəzifələrin tam şəkildə yerinə yetirilməsi üçün hazır olmalıdırlar. Artıq əvvəlki illərdə olduğu kimi hər bir quruma qarın təmizlənməsi üçün lazımi qədər alət, inventarın (bel, kürək, ling və s.) toplanması, duz ehtiyatı yaradılması, xüsusi texnikaların vəziyyətinin yoxlanılması ilə bağlı tapşırıqlar verilib. Rayondakı küçə və məhəllələrin qardan təmizlənməsinə cavabdeh şəxslərin siyahıları hazırlanıb, bu işlərə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikaları cəlb ediləcək.



**3841 yaşayış binası istiliklə təmin edilir**

"Azəristiliktəchizat" ASC-dən bildirlib ki, Nazirlər Kabinetinin 5 sentyabr 2023-cü il tarixli müvafiq qərarı ilə təsdiq edilmiş "İstilik enerjisindən istifadə qaydaları"na əsasən Bakı şəhərində və respublikanın regionlarında 15 noyabr 2025-ci il tarixindən etibarən növbəti istilik mövsümünə başlanılıb . 2025-2026-cı illər payız-qış mövsümü ərzində "Azəristiliktəchizat" ASC Bakı şəhəri və respublikanın regionlarında balansında olan 550 qazanxana və 88 istilik məntəqəsi vasitəsi ilə 3841 yaşayış binasının, 276 orta məktəbin, 156 uşaq bağçasının, 143 səhiyyə müəssisəsinin və 2786 sosial və təsərrüfat hesablı obyektlərin istilik enerjisi ilə təmin edilməsi nəzərdə tutulub.

"Azəristiliktəchizat" ASC 2025-2026-cı illər payız-qış mövsümünə hazırlıq işlərini təsdiq olunmuş tədbirlər planına uyğun olaraq tamamlayıb, istilik mənbələrinin səmərəliliyini yüksəltmək, enerji itkilərini minimuma endirmək və istehlakçılara keyfiyyətli istilik enerjisi təqdim etmək məqsədilə istismar müddəti başa çatan 7 köhnə tipli qazanxananın da yenidənqurma işlərini həyata keçirib. O cümlədən Nərimanov rayonu A.Nemətulla küçəsi 63 ünvanda 92 saylı, A.Heydərov küçəsi 24 ünvanda 86 saylı, Nizami rayonu T.Abbasov küçəsi 65 ünvanda 515 saylı, Babək prospekti 99 ünvanda 539 saylı, Yasamal rayonu N.Nərimanov prospekti 55 ünvanda 140 saylı, Pirallahı rayonu 40-cı məhəllə ünvanında 533 saylı və Səbail rayonu Badamdar qəsəbəsi Gənclər küçəsi 3 ünvanında 504 saylı qazanxanaların tam olaraq sökülməsi, layihəyə uyğun olaraq yeni binaların tikilməsi və ən müasir avadanlıqlar quraşdırılmaqla modernləşdirimәsi işləri icra edilib.

Modernləşdirilən qazanxanaların quraşdırılan ümumi gücü 20,6 MVt (17,75 Qkal.saaat) təşkil edir və 53 yaşayış binası, 4 məktəb, 5 uşaq bağçası, 2 səhiyyə obyekti və 24 digər istehlakçıların yüksək keyfiyyətdə istiliklə təmin edilməsinə imkan verir.

**Tullantı və yağış xətlərində monitorinqlər aparılır**

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətindən verilən məlumata görə, payızda mövsümlə əlaqədar qurum tərəfindən bütün tullantı və yağış xətlərində monitorinqlər aparılır. Yağış kollektor quyularına, daşıyıcı xətlərə ayrı-ayrılıqda baxış keçirilir. Tutulmalar müşahidə olunan xətlərdə texnikalar vasitəsilə yuyulma işləri icra olunur. Ərazidəki şəbəkələr payız-qış mövsümünə tam hazır vəziyyətə gətirilir. Ancaq nəzərə almaq lazımdır ki, hər bir kollektorun müəyyən daşıma həcmi mövcuddur. İntensiv leysan xarakterli yağışlarda kollektorlar həddindən artıq yüklənə bilir.

Həmçinin o da məlumdur ki, elə ərazilər var ki, orada təchizat sistemi mövcud deyil. Belə hallarda bu kimi ərazilərdə intensiv yağıntılar zamanı suyun ətrafa toplanması müşahidə edilir. Bu kimi problemlərin aradan qaldırılması məqsədilə İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Tullantı su şəbəkəsi mövcud olmayan ərazilərə müvafiq sukanal idarələrinin qəza briqadaları cəlb edilərək istismar qaydalarının mümkün şərtləri çərçivəsində yığılan suyun maşınlar vasitəsilə çəkilməsi təmin edilir.

Eyni zamanda, hazırda ADSEA tərəfindən tullantı su təchizatının yaxşılaşdırılması və yeni infrastruktur təminatı məqsədilə bir sıra irihəcmli layihələr icra olunur. Dərnəgül-Bakıxanov-Qaraçuxur-Hövsan kanalizasiya kollektoru, Lökbatan hövzəsi üzrə gətirici kanalizasiya kollektoru və tullantı sular üçün sutəmizləyici qurğu, Müşfiqabad hövzəsi üzrə gətirici kanalizasiya kollektoru və tullantı sular üçün sutəmizləyici qurğu, Sahil kollektoru, Zığ-Hövsan kanalizasiya kollektorunun qurulması istiqamətində hazırda müntəzəm tikinti-quruculuq işləri icra olunur. Bu layihələrin icrası tullantı sularının idarə edilməsinə, ekoloji vəziyyətinin yaxşılaşdırılmasına və intensiv yağışlar zamanı subasma hallarının qarşısının alınmasına imkan yaradacaq.

*Mübariz FEYİZLİ*

# Sosial-iqtisadi inkişafın maliyyə təminatı

**Məlum olduğu kimi, dekabrın 9-da Milli Məclisin plenar iclasında "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi III oxunuşda səsə qoyularaq qəbul edilib. Qanuna əsasən, 2026-cı il üçün dövlət büdcəsinin gəlirləri 38 milyard 609 milyon manat, xərcləri isə 41 milyard 703,6 milyon manat məbləğində proqnozlaşdırılır. Dövlət büdcəsinin kəsiri isə 3 milyard 94,6 milyon manat proqnozlaşdırılır ki, bu ÜDM-in cəmi 2,3 faizi həcmindədir. Növbəti il üçün icmal büdcənin gəlirləri 1 milyard 18,8 milyon manat artaraq 44 milyard 969,4 milyon manat, xərcləri isə 1 milyard 209,9 milyon manat artaraq 48 milyard 839,3 milyon manat, kəsiri isə 3 milyard 870 milyon manat məbləğində müəyyən olunub. 2026-cı ilin büdcə zərfi ortamüddətli dövr üzrə büdcə siyasətinin məqsəd, istiqamət və hədəfləri bir sıra çağırışlar nəzərə alınmaqla müəyyən edilib. Ölkəmizin ali maliyyə sənədi olan büdcə layihəsi möhkəm konsolidasiya, fiskal dayanıqlılıq, keyfiyyət dəyişikliklərinə keçid və digər amilləri özündə əks etdirir. Büdcə çərçivəsi sənədlərində əks olunan əsas məqsədlər, o cümlədən Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər və 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasının icrası, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük Qayıdışın təmin edilməsi, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi, iqtisadiyyatın digər sahələri üzrə qəbul edilmiş strategiya və dövlət proqramlarının icrası üçün maliyyə təminatının yaradılması ortamüddətli büdcə dövrü üçün öz aktuallığını qorumaqdadır.**

## Bəzi sahələrin xərcləri artırılıb

İkinci oxunuşda təsdiq edilən büdcə layihəsindən sonra irəli sürülən təklif və müraciətlər parlamentdə və müvafiq qurumlarda nəzərə alındıqdan sonra büdcə zərfinin son vasiantında bəzi dəyişiklilər edilib. Belə ki, müdafiə və milli təhlükəsizlik, hüquq-mühafizə xərcləri üzrə bəzi maddələrin əlavə olaraq 47,8 milyon manat artırılıb. Növbəti ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin təqribən 21 faizini təşkil etməklə 8,7 milyard manat həcmində nəzərdə tutulub.

Digər dəyişiklik ərzaq və qida təhlükəsizliyi çərçivəsində heyvanlar arasında yoluxucu xəstəliklərə və epizotiya əleyhinə peyvəndləmə işləri üçün əlavə 3 milyon manat vəsaitin yönəldilməsidir. Həmçinin, bəzi dövlət orqanlarının fəaliyyətinin təşkili və onların maddi-texniki təminatının daha da yaxşılaşdırılması ilə bağlı 1,2 milyon manat vəsaitə ehtiyac yaranıb.

Ümumilikdə, 52 milyon manat təşkil edən xərclərin təsnifatı üzrə dəyişikliklər dövlət büdcəsinin müvafiq ehtiyatları hesabına təmin olunacaq. Yəni, büdcənin proqnozlaşdırılan xərcləri əvvəlki kimi qalacaq, əlavə maliyyə təminatı büdcədənkənar ehtiyatlar hesabına təmin ediləcək.

Büdcədə son dəyişikliklərdən biri optimallaşma tədbirləri ilə bağlıdır. Belə ki, bəzi təşkilatların təklifləri əsasında onların xərclərinin optimallaşdırılması səbəbindən iqtisadi təsnifata uyğun olaraq 13,2 milyon manat məbləğində maddələrarası yerdəyişmələr aparılıb.

Böyük Qayıdış Proqramının icrası, ölkəmizin təhlükəsizliyinin gücləndirilməsi, nəqliyyat-tranzit infrastrukturunun dəstəklənməsi və bütün bunların sosial müdafiə tədbirləri ilə müşayiət edilməsi yeni büdcə sənədinin əsas xüsusiyyətlərindəndir. Büdcə zərfi həm də maliyyə təhlükəsizliyinin gücləndirilməsini, o cümlədən valyuta ehtiyatlarımızın qorunmasını hədəfləyir. Qarabağ və Şərqi Zəngəzurun bərpasına 3,5 milyard manat vəsaitin ayrılması planlaşdırılıb. Beləliklə, işğaldan azad edilmiş ərazilərin bərpasına gələcək 6 il ərzində dövlət büdcəsindən təxminən 27 milyard manat vəsaitin xərclənməsi gözlənilir.



## Vergi güzəştlərinin əsas istiqamətləri

**2026-cı ilin büdcə zərfi bütün hədəf və prioritetlər üçün dayanıqlı potensial yaradır**

2026-cı ildə fiskal yığımların daha da artırılması və optimallaşdırılması məqsədilə vergi qanunvericiliyində də müvafiq dəyişikliklər edilib. Vergi Məcəlləsinə edilən dəyişikliklərə əsasən, nağdsız əməliyyatların stimullaşdırılması məqsədilə pərakəndə ticarət və vergi orqanında uçotda olmayan şəxslərə göstərilən xidmətlər üzrə POS-terminal vasitəsilə nağdsız qaydada aparılan ödənişlərdən formalaşan dövriyyəyə 0,5 əmsal tətbiq edilir və bununla da həmin dövriyyə ƏDV qeydiyyatı məqsədləri üçün iki dəfə artırılmış məbləğdə nəzərə alınır. Təklif olunan düzəlişlə bu müddəanın yalnız ƏDV qeydiyyatına daxilolma deyil, həm də ƏDV qeydiyyatından çıxma zamanı nəzərə alınması dəqiqləşdirilir.

Büdcə çərçivəsində vergi güzəştləri və təşviq mexanizmləri vasitəsilə sahibkarlığın dəstəklənməsi nəzərdə tutulub. Naxçıvan Muxtar Respublikası üzrə 10 illik müddət ərzində vergilərdə və sosial ödənişlərdə güzəştlər nəzərdə tutulur. Bu, muxtar respublikada iqtisadi inkişafın və sahibkarlığın stimullaşdırılmasına imkan verəcək. Həmçinin sənaye parkları və sənaye məhəllələrinin dəstəyi davam etdiriləcək, güzəştlərin tətbiqi genişləndiriləcək. Vergi qanunvericiliyində edilmiş digər dəyişikliyə əsasən, mikrosahibkarlar üçün sadələşdirilmiş vergi limiti iki dəfə artırılaraq 200 min manatdan 400 min manata çatdırılacaq. Bu tədbirlər dayanıqlı iqtisadi inkişafın dəstəklənməsinə və sahibkarlığın inkişafına yeni imkanlar yaradacaq.

Ümumilikdə, vergi siyasətinin prioritetlərinə əsasən, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən vergi ödəyicilərində işləyən fiziki şəxslərin muzdlu işdən aylıq gəlirlərinə münasibətdə vergi yükünün optimallaşdırılması, ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət büdcəsinə ƏDV hesablanarkən onların nağdsız qaydada ödəmələr əsasında formalaşan dövriyyəsinin 50 faizinin ümumi dövriyyələrindən çıxılması, gəmiqayırma və gəmi təmiri müəssisələri yalnız fəaliyyətlərinin məqsədləri üçün idxal etdikləri malların ƏDV-dən azad edilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının gübrələrə əlçatanlığının artırılması, əhalinin ekoloji təmiz kənd təsərrüfatı məhsulları ilə təminatının gücləndirilməsi məqsədilə mineral gübrələrlə yanaşı orqanomineral gübrələrin satışının, xammal kimi istifadə edilməsi məqsədilə mineral və orqanomineral gübrələrin idxalının da ƏDV-dən azad edilməsi nəzərdə tutulur. Habelə, media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) məhz media ilə bağlı fəaliyyətdən əldə etdikləri gəlirləri üzrə tətbiq olunan güzəştin uzadılması da vergi dəyişiklikləri sırasındadır.

Həmçinin, "İşğaldan azad edilmiş ərazinin rezidenti olma" statusu Vergi Məcəlləsi ilə müəyyən edildiyindən "Sosial sığorta haqqında" qanuna da uyğunlaşdırılıb. "Tibbi sığorta haqqında" qanuna təklif olunan düzəlişdə isə qeyri-formal məşğulluğun təsir dairəsinə düşən sığortalıların müəyyən edilməsi nəzərdə tutulub.

## Əhalinin sosial rifahı üçün 17,1 milyard xərclənəcək

Əhalinin real gəlirlərinin artımı və sosial rifahının yaxşılaşması üçün 2026-cı ilin dövlət büdcəsində sosialyönlü xərclər 17,1 milyard proqnozlaşdırılıb. Bu da ümumi büdcə xərclərinin 41 faizini təşkil edir. Sosial xərclərin əsas mənbələrindən biri kimi icmal büdcənin tərkib hissəsi olan Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2026-cı il üzrə büdcəsində də əhəmiyyətli artımlar mövcuddur. Belə ki, DSMF-nin 2026-cı il üçün gəlirləri cari ildəkindən 9,3 faiz, xərcləri isə 10,5 faiz çox nəzərdə tutulub. DSMF-nin büdcə xərcləri ilk növbədə, şəhid ailələrinin, qazilərin, pensiya və müavinət alanların, təqaüdçülərin, ümumilikdə ölkə vətəndaşlarının sosial rifahının daha da yaxşılaşdırılması üçün etibarlı təminat yaradır.

Gələn il əhalinin əsas sosial demoqrafik qrupları üzrə yaşayış minimumunun məbləği ölkə üzrə 300 manat həddində müəyyənləşdirilib. Əmək qabiliyyətli əhali üçün bu rəqəm 317 manat, pensiyaçılar üçün 245 manat, uşaqlar üçün 260 manat məbləğindədir. Bu, 2026-cı il üçün proqnozlaşdırılan 4,8 faiz, inflyasiya fonunda ölkə üzrə yaşayış minimumundan 5,3 faiz çox artım deməkdir.

***E.CƏFƏRLİ***

# İƏT-in gənclər platforması...

## Azərbaycan nümunəvi model kimi təqdim edilir

***Yeganə***

Qlobal müstəvidə ziddiyyətlərin artdığı bir zamanda Azərbaycanın geostrateji inteqrasiya prosesinə verdiyi töhfələr göz önündədir. Ölkəmizin beynəlxalq strukturların fəaliyyətindəki aktivliyini günü-gündən artırması, regional liderlikdən geniş bir coğrafiyanın aparıcı aktoruna çevrilməsi yürüdülən düzgün, hədəfləri bəlli olan, ən əsası isə əməkdaşlıq prinsiplərini əsas götürən xarici siyasət kursunun uğurlarıdır.

Bakı bu gün həm Qərb, həm də Şərq təmayüllü təşkilatların, İslam birliyinin mühüm tərəfdaşıdır. Bu fakt ölkəmizin beynəlxalq səviyyədə çoxvektorlu siyasətə üstünlük verdiyini növbəti dəfə təsdiqləyir, çoxtərəfli tərəfdaşlığın inkişaf etdirilməsi isə qlobal intqerasiyasının imkanlarını genişləndirir. Azərbaycan beynəlxalq əlaqələrini yalnız siyasi motivlərlə çərçivələmir, əksinə, bu sistem həm iqtisadi, həm mədəni, həm də humanitar mahiyyət daşıyır. Bu əlaqələrin ən əhəmiyyətlilərindən biri də İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ilə bağlıdır.

İƏT Azərbaycan üçün mühüm platformadır. Ermənistan-Azərbaycan münaqişəsi dövründə təşkilat daim ölkəmizin ərazi bütövlüyünü dəstəkləyib, Azərbaycana qarşı işğalçı siyasəti kəskin şəkildə pisləyən bir sıra qətnamələr qəbul edib. Bu, Azərbaycanın diplomatik səylərinin uğurlu nəticələrindən biridir.



Bundan başqa, ölkəmiz İƏT daxilində humanitar əməkdaşlıq, iqtisadi inkişaf, mədəni irsin qorunması və islamofobiya ilə mübarizə sahələrində təşəbbüslərlə çıxış edir. Azərbaycanın İslam dünyasına böyük töhfələrindən biri isə İslam Əməkdaşlıq Gənclər Forumunun (İƏGF) yaradılmasıdır. Forumun yaranması və fəaliyyətə başlaması ilə məhz Azərbaycanın fəal mövqeyi nəticəsində təşkilatın gənclər siyasəti sistemli şəkildə qurulub. Eyni zamanda, müsəlman ölkələrinin gəncləri arasında əməkdaşlıq, birliyə çağırış və ortaq layihələrin reallaşdırılması mümkün olub. Azərbaycan illər boyu forumun əsas tərəfdaşlarından biri olub, müxtəlif beynəlxalq layihələrə ev sahibliyi edib. Bakı dəfələrlə İƏT Gənclər Paytaxtı elan edilib, müxtəlif proqramlar-təlimlər, konfranslar, mədəni və humanitar layihələr həyata keçirilib. Bir sözlə, ölkəmizin gənclər təşkilatları forumun fəaliyyətində geniş təmsil olunur, Azərbaycanın gənclər siyasəti isə İƏGF tərəfindən nümunəvi model kimi təqdim edilir.

Dekabrın 10-da İslam Əməkdaşlıq Gənclər Forumu (İƏGF) Avrasiya Regional Mərkəzinin fəaliyyətinin 15 illiyi ilə bağlı diplomatik qəbul keçirilib. Əvvəlcə İƏGF Avrasiya Regional Mərkəzinin 15 illik fəaliyyəti dövründə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) məkanında gəncliyin inkişafına və beynəlxalq əməkdaşlığa verdiyi töhfələri əks etdirən videoçarx nümayiş olunub.

Sonra İƏGF Avrasiya Regional Mərkəzinin İdarə Heyətinin sədri Elçin Əsgərov çıxış edərək, İƏT-in ilk gənclər platforması olan forumun 2004-cü ildə Azərbaycan hökumətinin və Prezident İlham Əliyevin dəstəyi ilə Bakıda təsis olunduğunu, forumun Avrasiya Regional Mərkəzinin də Azərbaycan hökumətinin dəstəyi ilə Bakıda yaradıldığını nəzərə çatdırıb. O, ev sahibliyi və davamlı dəstəyə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirib: "Azərbaycanın İƏT-dəki fəal iştirakı ölkəmizin islam dünyası ilə həmrəyliyini və beynəlxalq əməkdaşlığa verdiyi dəyəri göstərir. İslam Əməkdaşlıq Gənclər Forumunun yaradılması və inkişafında Azərbaycanın rolu bu istiqamətdə atılan strateji addımların ən bariz nümunələrindən biridir. Bu səylər həm gənclərin regional inteqrasiyasını, həm də Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin güclənməsini təmin edir".

Azərbaycan hökuməti adından çıxış edən gənclər və idman naziri Fərid Qayıbov İƏGF Avrasiya Regional Mərkəzi ilə əməkdaşlıqdan məmnunluq duyduğunu bildirib. O, bundan sonra da nazirliyin Mərkəzlə əməkdaşlığa davam edəcəyini vurğulayıb.

Mərakeşin ölkəmizdəki səfiri Mohammed Adil Embarç qloballaşan dünyada artan risk, təhlükə və çağırışlar fonunda İƏGF Avrasiya Regional Mərkəzinin 15 il ərzində İƏT ölkələri gəncliyinin inkişafına və şəbəkələşməsinə, onların liderlik bacarıqlarının artırılmasına verdiyi töhfələri xüsusi vurğulayıb. Səfir Mərkəzin gələcək fəaliyyətinə uğurlar arzulayıb.

Daha sonra bu il dekabrın 6-da Bakıda keçirilmiş İƏT Xarici İşlər nazirlərinin simulyasiyasında xüsusi bacarıqları və fəallıqları ilə fərqlənmiş 9 iştirakçı fərqlənmə sertifikatı və mükafatlarla təltif olunub. Tədbir İƏT ölkələrini təmsil edən mədəniyyət proqramı və ziyafətlə davam edib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

# Səfirlərin kritik seçimi

## Avropadakı 210 milyard avro həcmində Rusiya aktivlərinin taleyi necə olacaq?

Gözlənilən qərar verildi. Avropa İttifaqı (Aİ) ölkələrinin səfirləri Avropa Komissiyasının (AK) təqdim edilmiş hüquqi mexanizmə uyğun olaraq Avropada saxlanılan təxminən 210 milyard avro həcmində Rusiya dövlət aktivlərinin qeyri-müəyyən müddətə dondurulması təklifini təsdiqləyiblər.

Danimarkanın Aİ-dəki sədrliyinə istinadən yayılan məlumata görə, cümə axşamı Avropa Komissiyasına Ukraynaya müharibədən sonrakı reparasiyalar ödənilənədək aktivlərin bloklanmasına imkan yaradacaq fövqəladə səlahiyyətlər verilib. Bəyanatda qeyd olunub ki, səfirlər 122-ci maddə ilə bağlı təklifin yenidən baxılmış versiyasını səs çoxluğu ilə razılaşdırıb və rəsmi qərarın qəbul edilməsi üçün yazılı prosedurun başlanmasına icazə veriblər.

Xatırladaq ki, daha əvvəl Rusiya aktivlərinin dondurulması qərarı hər altı aydan bir yekdilliklə yenilənirdi və bu zaman Macarıstanın veto qoymaq imkanı var idi.

### Asan olmayan razılaşma

Avropa İttifaqı ölkələrinin səfirlərinin Rusiya dövlət aktivlərinin qeyri-müəyyən müddətə dondurulması təklifini təsdiqləmələri uzun müzakirələrin sonunda verilən və heç də asan olmayan bir qərardır. Məsələ burasındadır ki, hansısa bir dövlətin nüfuzlu maliyyə qurumlarında saxlanılan aktivlərinin dondurulması beynəlxalq hüquqla bir araya sığmır. Bu kimi qərarlar təhlükəli presedentlər yarada və vəsaitlərin saxlanıldığı beynəlxalq maliyyə qurumlarına və ölkələrə inamı sarsıda bilər. Məhz buna görə də müvafiq razılaşmanın əldə olunması ətrafında müzakirələr uzun çəkdi. İndinin özündə də bəhs olunan razılaşma bütün ölkələrin və beynəlxalq maliyyə qurumlarının mövqeyini əks etdirmir. Qeyd edək ki, Rusiya-Ukrayna müharibəsi başladıqdan sonra Avropa İttifaqı, Kanada, ABŞ və Yaponiya Rusiyanın təxminən 300 milyard dollar məbləğində aktivlərini dondurub. Bunların təxminən 5-6 milyard dollarlıq hissəsi ABŞ-ın payına düşür. Aktivlərin böyük hissəsi isə Avropada, o cümlədən 210 milyard dollar vəsait Belçikadakı



"Euroclear" beynəlxalq platformasında saxlanılır.

Mənbələrin məlumatına görə, Rusiya aktivlərinin 210 milyard avroluq hissəsinin qeyri-müəyyən müddətdə dondurulması ilə bağlı son müzakirələr dekabrın 8-də Londonda Böyük Britaniyanın Baş naziri Kir Starmer, Fransa Prezidenti Emmanuel Makron, Almaniya Kansleri Fridrix Merts və Ukraynanın dövlət başçısı Volodimir Zelenskinin görüşündə müzakirə edilib. Həmin görüşdə liderlər ortaq mövqeyə yaxınlaşıblar. Bütövlükdə, ayrı-ayrı ölkələr və liderlər aktivlərin uzun müddətdə dondurulmasının tərəfdarıdırlar. Almaniya Kansleri Fridrix Mertz birmənalı olaraq o mövqedən çıxış edir ki, Avropadakı dondurulmuş Rusiya aktivləri Ukraynaya yardım üçün istifadə olunmalıdır. "Biz bu aktivlərin Ukraynanı daha çox dəstəkləmək üçün də istifadə edilməli olduğuna dair qiymətləndirməni bölüşürük. Brüsseldə Avropa Şurasında müvafiq zəmanətləri verməyə hazır olduğumuzu bildirmişdim", - deyə kansler vurğulayıb.

Fransa Prezidenti E.Makron da Rusiya aktivləri üzərində uzunmüddətli nəzarətin saxlanılmasının tərəfdarıdır. Fransa prezidentinin sözlərinə görə, Aİ Ukraynanın hərbi səylərinin uzunmüddətli maliyyələşdirməsini təmin etmək üçün müvafiq həll yolları tapmalı, həmçinin beynəlxalq hüquq normalarına uyğun olaraq bu gələcək maliyyələşdirmənin formatını və bu prosesdə Rusiya aktivlərinin rolunu müəyyən etməlidir.

Lakin Avropa İttifaqının ayrı-ayrı dövlətləri və aktivlərin saxlanıldığı digər ölkələrin heç də hamısı Fransa və Almaniyanın sərt mövqeyini bölüşmürlər. Yuxarıda qeyd etdiyimiz kimi. Macarıstan lap əvvəldən aktivlərin dondurulmasına qarşı çıxıb. Həmçinin Belçikanın ehtiyatlı davranışları da diqqət çəkir. Rusiya aktivlərinin müsadirəsi məsələsi Aİ ilə Belçika hökuməti arasında ciddi fikir ayrılığı yaradıb. Belə ki, Belçikanın Baş naziri Bart de Vever Aİ-nin Ukraynaya dəstək məqsədilə dondurulmuş Rusiya aktivlərinin müsadirə etmək cəhdlərinə veto qoyub. Bununla belə, Avropa Komissiyasında əldə olunan razılaşma onu deməyə əsas verir ki, Aİ-nin Belçikaya yönəlik siyasi təzyiqləri mövqelərin uzlaşmasına öz təsirini göstərib.

Rusiya aktivlərinin saxlanıldığı Aİ-dən kənar dövlətlərin yanaşmaları da Avropa Komissiyasının mövqeyindən kəskin şəkildə fərqlənir. ABŞ-ın təqdim etdiyi 28 bəndlik sülh planında Rusiyanın dondurulmuş aktivlərinin müəyyən hissəsinin bu ölkəyə qaytarılması mexanizmini əks etdirən müddəa yer alır. Bəhs olunan müddəa sərt sanksiyalarla üzləşən Rusiya üçün bir nəfəslik kimi dəyərləndirilir.

Həmçinin Yaponiya da Avropanın Rusiya aktivlərinin qeyri-müəyyən müddətdə dondurulması ilə bağlı planını bölüşmür. Rəsmi Tokio Avropa İttifaqı ölkələrinin təxminən 30 milyard dollar məbləğində dondurulmuş Rusiya aktivlərinin müsadirə olunması təklifindən imtina edib. Bu ölkənin maliyyə naziri Satsuki Katayama Yaponiya tərəfinin hüquqi səbəblərdən Rusiya aktivləri üzərində sərəncam vermək səlahiyyətində olmadığını bildirib.

### Avropanın əsas izahı - müharibə "qoca qitə" üçün sürpriz çətinliklər yaradıb

Avropa İttifaqı ölkələrinin səfirlərinin müvafiq razılaşmasının əsas izahı kimi müharibənin "qoca qitə" üçün sürpriz çətinliklər yaratdığı göstərilir. Təsirlərin miqyası həqiqətən böyükdür. Əksər Avropa ölkələri ölçüyəgəlməz itkilərə məruz qalırlar. Bu çətinliklər enerji təhlükəsizliyinə yaranan təhdidlərdən tutmuş inflyasiyanın artmasına, ümumi daxili məhsulun artım dinamikasının əhəmiyyətli dərəcədə aşağı düşməsinə, miqrantların yerləşdirilməsinə, Vaşinqtonun yeni şərtləri daxilində Ukraynanın silah təchizatı ilə bağlı əlavə xərc öhdəliklərinin yaranmasınadək ən müxtəlif istiqamətləri əhatə edir.

Avropa İttifaqının rəsmiləri çətinliklərə istinad etməklə bildirirlər ki, Aİ-nin Fəaliyyəti haqqında Müqavilənin (TFEU) 122-ci maddəsi Rusiya aktivlərinin qeyri-müəyyən müddətdə dondurulmasının hüquqi əsasını təşkil edir. Sözügedən müqaviləyə əsasən, Aİ əhalisinin 65 faizini təmsil edən 15 ölkə Rusiyanın aktivlərini qeyri-müəyyən müddətə dondura bilər. Aİ-nin nümayəndəsi Balaş Uyvari məsələ ilə bağlı vəziyyəti şərh edərkən bildirib ki, son 5 ildə Aİ tez-tez gözlənilməz böhranlarla üzləşib və bunun iqtisadi təsiri qaçılmaz olub. O, belə vəziyyətdə 122-ci maddənin tətbiqinin məqsədəuyğun olduğunu bildirib və vurğulayıb ki, bu, Avropa İttifaqının çətin iqtisadi vəziyyətdən çıxmasına kömək edə biləcək resursların cəlb olunmasına imkan verir. Qurum rəsmisi əlavə edib ki, əgər Rusiya-Ukrayna müharibəsi, Ukraynaya yardımlar və müdafiə xərcləri olmasaydı, Avropada iqtisadi vəziyyət xeyli yaxşı olardı.

*Mübariz ABDULLAYEV*

# ABŞ NATO-dan çıxarsa...

## Alyansın taleyi "qaranlıqdır"...

ABŞ-ın NATO-dan çıxması haqqında 2025-ci ilin yanvarından başlanan müzakirələr təsdiqini tapa bilər. Belə ki, artıq bununla bağlı qanun layihəsi hazırlanıb. Respublikaçıları təmsil edən konqresmen Tomas Massi ABŞ-ın Şimali Atlantika Alyansından çıxmasını nəzərdə tutan HR 6508 qanun layihəsini ("NATO Qanunu") Nümayəndələr Palatasına təqdim edib. Bu barədə siyasətçinin rəsmi saytında məlumat yayılıb. "NATO "soyuq müharibə"nin qalığıdır. Biz NATO-dan çıxmalı və bu pulu sosialist ölkələrini deyil, öz ölkəmizi müdafiə etmək üçün istifadə etməliyik. Bu ittifaq 30 il əvvəl dağılan Sovet İttifaqına qarşı durmaq üçün yaradılıb. Blokda iştirak Amerika vergi ödəyicilərinə trilyonlarla dollara başa gəlib və ABŞ-ın xarici münaqişələrdə iştirakı riskini yaratmağa davam edir. Varlı ölkələr öz müdafiə xərclərini ödəməkdən imtina etdikdə, Amerika dünya üçün "təhlükəsizlik yorğanı" olmamalıdır", - o bildirib.

### Yeni strategiya: NATO - dan kənar müdafiə sistemi...

Bu tip müzakirələr 2025-ci il ərzində mütəmadi olaraq səsləndirilirdi. Bir çox siyasətçilər bunu yalnız hədə tonu kimi qəbul etsə də, "SOS" siqnalı səsləndirənlər də tapılırdı. Prezident Donald Tramp dəfələrlə müttəfiqlərinin müdafiə xərclərinin yetərli olmaması səbəbindən ölkəsinin NATO-dan çıxması ilə bağlı mövqeyini səsləndirmişdi. Hətta ABŞ-ın yeni milli təhlükəsizlik strategiyasında belə bu amil nəzərə çarpır - qeyd edək ki, dekabrın 4-də Tramp administrasiyası Milli Təhlükəsizlik Strategiyasını açıqlayıb. Bu strategiya formal olaraq, ölkənin xarici və müdafiə siyasətinin fundamental prinsiplərini və prioritetlərini təsbit edən sənəddir. Budəfəki strategiya sensasiyaya səbəb olub: ABŞ beynəlxalq münasibətlərə yanaşmasında köklü dəyişikliklər elan edib. Sənədin mahiyyətində duran məna ondan ibarətdir ki, ABŞ qlobal dominantlıqdan imtina edir - artıq dünyada baş verən hər şeyi öz narahatlığı hesab etmir. Doktrinada ən radikal siyasət dəyişikliyi Avropa ilə bağlıdır - ötən il ərzində Tramp, vitse-prezident C.D.Vens, dövlət katibi Marko Rubio və digər amerikalı rəsmilərin çıxışlarında səsləndirilən Qərbi Avropaya qarşı tənqidlər indi rəsmi sənəddə öz əksini tapıb. Qərb koalisiyasının əsas fikir ayrılığı Avropanın ABŞ-ın onları xarici təhdidlərdən qorumasını gözləməsi, müdafiələrinə kifayət qədər pul xərcləməməsi ilə əlaqələndirilir. Tramp administrasiyası dəfələrlə buna son qoyacağını bəyan etmişdi - yeni doktrinada bu, artıq öz əksini tapır. Strategiyada NATO-nun genişlənməsinin dayandırılmalı olduğu bildirilir.

Qeyd edək ki, bununla bağlı bir neçə gün öncə "The Financial Times" yazmışdı - bildirilirdi ki, "əgər bu məntiq ardıcıl şəkildə həyata keçirilsə, nəticə ABŞ-ın NATO-dan çıxması, mövcud Avropa hökumətləri ilə əlaqələrin qırılması və Rusiya ilə strateji yaxınlaşma ola bilər". Məqalədə bildirilirdi ki, yeni Amerika doktrinası Avropaya qarşı ABŞ-ın ultimatumudur və məqsəd "köhnə dünya" ölkələrinin Ağ Evin siyasətini dəstəkləməsinə nail olmaqdır.

### Haaqa sammitində son xəbərdarlıq edilib...

Xatırladaq ki, ABŞ-ın NATO-un yeni standartlarla formalaşmasının zəruriliyi ilə bağlı tezisləri hələ iyun ayında alyansın Haaqa sammitində büruzə verilmişdi - həmin toplantıda vitse-prezident C.D.Vensin qalmaqallı çıxışı yaddan çıxmayıb. Vaşinqton administrasiyası Avropanın ABŞ-ın maliyyəsi ilə müdafiə olunmasına qarşı çıxmışdı. Bu sammitə qədər NATO üzvləri ÜDM-lərinin 2 faizini müdafiəyə xərcləyirdilər - 2024-cü ildə 32 ölkədən 23-ü bu hədəfə çatmışdı. Alyans gələn ildən bu rəqəmin 5 faiz səviyyəsində olmasına razılıq verib. Qeyd edək ki, Polşa bu hədəfə ən yaxındır - 2024-cü ildə Varşava müdafiə xərclərinə ÜDM-in 4,1 faizi miqdarında vəsait ayırıb - qarşıdakı hədəf isə 4,7 faiz faizdir. İspaniya 2024-cü ildə ÜDM-nin yalnız 1,28 faizin müdafiəyə xərcləyərək alyansın ən qənaətcil üzvi olaraq qalmışdı. İtaliyada isə bu rəqəm 1,25 faiz nisbətində idi.




### Təhdid, yoxsa reallıq...

Beləliklə, ABŞ-ın NATO-nun maliyyələşdirilməsinə dair narazılığı rəsmiləşdirilir. Vaşinqton ardıcıl şəkildə bildirir ki, Avropa ölkələrinin əksəriyyəti müdafiə sahəsinə kifayət qədər vəsait ayırmır - ABŞ ümumi NATO müdafiə xərclərinin təxminən 70 faizini qarşılayır və bu göstərici "ədalətsiz yük bölgüsü" kimi qiymətləndirilir.

Bir çox siyasətçilər, xüsusilə Qərbi Avropadan olan politoloqlar yeni strategiyanı, ABŞ rəsmilərinin alyansdan çıxmaqla bağlı səsləndirdiyi hədələri daha çox siyasi təzyiq aləti kimi dəyərləndirirlər. Onların fikrincə, bu bəyanatlar əsasən Avropa üzvlərini müdafiə xərclərini artırmağa vadar etmək məqsədi daşıyır - qeyd olunur ki, ABŞ-ın real olaraq NATO-dan çıxması olduqca aşağı ehtimaldır. Bunun səbəblərinə gəldikdə:

- Birincisi, NATO ABŞ-ın qlobal təhlükəsizlik arxitekturasındakı ən güclü təsir platformalarından biridir. Alyansdan çıxmaq ABŞ-ın Avropa və Atlantik regionunda liderlik mövqeyini zəiflədər, geosiyasi rəqiblər üçün boşluq yaradar.
- İkincisi, ABŞ-ın qanunverici orqanının, Konqresin belə bir kritik qərara tələsik imza atması inandırıcı görünmür.
- Üçüncüsü, ABŞ ordusu üçün NATO müttəfiqləri həm logistik dəstək, həm baza infrastrukturu, həm də əməliyyat gücü baxımından əvəzsizdir. Alyansın zəifləməsi ABŞ-ın qlobal hərbi imkanlarını da məhdudlaşdırır.

Bu baxımdan, ortaya çıxan situasiya siyasi ritorika kimi qəbul olunur. Buna baxmayaraq, Vaşinqtonun maliyyə yükünün azaldılması ilə bağlı təzyiqlərinin artması və Avropanın daha çox məsuliyyət daşımalı olması reallığı dəyişmir.

### Avropa "gücünü" artırır - qarşıdakı 9 ilə 60 milyard...

Bütün bunlara rəğmən, Avropa da özünün müdafiə kriteriyalarını artırmaq fikrindədir. Belə ki, Aİ üzvü olan dövlətlər yaranan NATO müəmması ilə bağlı öz müstəqil müdafiə qabiliyyətlərini gücləndirmək məqsədilə bir sıra təşəbbüslər irəli sürür. Bu isə bəzi siyasi şərhçilər tərəfindən "Avropanın müstəqil müdafiə sistemi" yaratmaq istiqamətində atılan addımlar kimi dəyərləndirilir. Daha çox ortaq müdafiə planlaması, silahların birgə alınması (PESCO, Avropa Müdafiə Fondu), öz müdafiə sənayesinin gücləndirilməsi (məsələn, Ukraynaya dəstək üçün Avropa Sülh Aləti) və NATO ilə əməkdaşlığı gücləndirmək kimi tədbirlər Avropanın özünü daha effektiv qoruya bilməsini təmin etməyə yönəlmiş addımlar sayılır. Bu addımlar Avropanın öz təhlükəsizlik məsələlərində daha az ABŞ-dan asılı olması, öz qərarını özünün verməsinə hədəflənir. Təsadüfi deyil ki, Aİ qarşıdakı 10 il ərzində hərbi ehtiyaclara 6,8 trilyon avro xərcləmək niyyətindədir. Ötən ayın sonlarında Avropa Parlamentində keçirilən dinləmələrdə çıxış edən müdafiə məsələləri üzrə Avropa komissarı Andrius Kubilius deyib ki, əgər Avropa İttifaqı ölkələri NATO-nun tələbi ilə 2035-ci ildək müdafiə xərclərini ümumdaxili məhsullarının 3,5 faizinədək artırsalar (NATO-nun hərbi xərclərin ümumdaxili məhsulun 5 faizinə çatdırmaq tələbi hərbi ehtiyaclar üçün 3,5 faizi, ikili təyinatlı infrastruktur layihələri üçün isə 1,5 faizi ehtiva edir), növbəti 10 il ərzində hərbi sahəyə 6,8 trilyon avro xərcləmiş olacaqlar. Müqayisə üçün deyək ki, Avropa İttifaqının növbəti yeddiillik büdcə planında (2026-2034) hərbi xərclər 60 milyard avro həcmində müəyyən edilib.

*P.İSMAYILOV*

# Qərb koalisiyasında səssiz fırtına - “Titanik” yenidən batacaqmı?

## ABŞ-Aİ gərginliyinin pərdəarxası və ya yeni “geosiyasi medalyon”un tərs üzü

“Soyuq müharibə” dövründən formalaşmağa başlayan “monolit Qərb komandası” təsəvvürü SSRİ-nin dağılması ilə daha güclü siyasi çalarlar qazandı. Dünya artıq Qərbin vahid qütb kimi çıxış etdiyi, geosiyasi və təhlükəsizlik arxitekturasının konturlarını müəyyənləşdirdiyi, qlobal proseslərə yön verən əsas aktor rolunu oynadığını düşünürdü. Xüsusilə 1990-2000-ci illərin qlobal siyasi reallığında ABŞ-ın liderliyində formalaşmış Qərb koalisiyası özünü həm qlobal təhlükəsizliyin dayağı, həm “demokratiya ixracatçısı”, həm də regionlararası konfliktlərin “hakimi” kimi təqdim edirdi.

Lakin XXI əsrə keçidlə bu təsəvvür getdikcə formalaşan yeni reallıqlar fonunda sarsılmağa başladı. Qlobal güc balansında baş verən dəyişikliklər, regional güclərin yüksəlişi, Çin və Rusiyanın daha sərt strateji xətti, Avropanın öz daxilində artan siyasi parçalanmalar və Vaşinqtonun müxtəlif adminstrasiyalarının fərqli xarici siyasət kursları Qərb daxilində harmoniya və sinxronluğun zəiflədiyini göstərdi.

### Disharmoniya: “monolit tamaşa” finala doğru...

Son illərdə isə bu çatlar daha da dərinləşir - NATO daxilində maliyyələşmə ilə bağlı yaranan gərginliklər, Aİ-nin transatlantik münasibətləri daha çox “bərabərhüquqlu tərəfdaşlıq” formatına salmaq cəhdləri, Avropanın özünün müstəqil təhlükəsizlik arxitekturasını qurmaq iddiaları, ABŞ-ın isə daha “selektiv müdaxilə” konsepsiyasına yönəlməsi koalisiyadaxili disharmoniyanın dərinləşməsinə zəmin yaradır.

Əslində problem təkcə siyasi fikir ayrılıqlarında deyil. Qərb koalisiyası daxilində yaranan çatlar artıq strateji qarşıdurma elementləri daşımağa başlayır:

- Qlobal təhlükəsizlik sisteminin formalaşmasına baxışda prioritetlər fərqlənir - NATO-nun maliyyələşməsi ilə bağlı ziddiyyətlər meydana çıxır,
- Regional münaqişələrə münasibət eyni deyil - Avropa özünün beynəlxalq status qazanmış təsisatları vasitəsilə daha yüksək təsiretmə mexanizmi formalaşdırdığını düşünür.
- Rusiya və Çin kimi qlobal güclərə baxış rakursu ziddiyyətlidir,
- Ən nəhayət, ABŞ və Avropa arasında liderlik uğrunda rəqabət fonunda “köhnə qitə”nin özünü yenidən qlobal aktor kimi sübut etmək cəhdləri müşahidə olunur.

İllərdir ki, pərdə arxasından boylanan bu ziddiyyətlər 2025-ci ildə disharmoniya səviyyəsinə çatdı və daha açıq forma aldı. Artıq Qərb daxilində yaranmış fikir ayrılığı təkcə ideoloji deyil, həm də ciddi geosiyasi qarşıdurma elementləri ilə müşayiət olunur.

### Avropanın “arzuları”: Brüssel “sel yaratmaq” istəyir...

Avropa zahirən öz təhlükəsizliyi üçün narahat görünür. Siyasi ritorikadakı “Rusiyanın təhlükəsi”, “NATO-ya daha çox sərmayə”, “Ukraynanın müdafiəsi” kimi çağırışlar xaricdən baxanda real həyəcan təsiri bağışlayır. Lakin aparıcı siyasi ekspertlərin əksəriyyəti hesab edir ki, Avropanın təhlükəsizlik indeksi əslində kritik həddə deyil. Rusiyanın NATO ölkələrinə hücum etmə ehtimalı faktiki sıfırdır. Bunun səbəbi Rusiyanın hərbi-strateji imkanlarından daha çox NATO-nun nizamnaməsinin 5-ci maddəsi və qlobal müharibə riskinə dair hesablardır.

Reallıqda Avropanın narahatlığı daha çox siyasi və geopolitik çəkisinin azalması ilə bağlıdır (özü bunu görür və hiss edir). ABŞ-ın Qərb koalisiyasının lideri qismində qlobal proseslərdə həlledici aktor kimi qalması, koalisiya daxilində əsas söz sahibinin Vaşinqton olması və qlobal nizamlanma mexanizmlərində Avropanın daha çox müşahidəçi rolunda çıxış etməsi Aİ-ni ciddi narahat edir. Avropa bu gün “səs-küy yaratmaqla” daha çox 3 strateji məqsəd güdür:

A) Qlobal proseslərdə əvvəlki gücünü bərpa etmək: “Köhnə qitə” ABŞ ilə “bərabərhüquqlu tərəfdaş” olmaq istəyir. Bu səbəbdən Avropa Ukrayna məsələsində dəfələrlə Vaşinqtonla sinxron addımlamaqdan imtina edib. NATO-nun maliyyələşməsi məsələsində Avropanın sərgilədiyi passivlik və Vaşinqtonun sərt tələblərinə etiraz da bunun nəticəsidir.

B) Müstəqil təhlükəsizlik arxitekturası yaratmaq: Avropa Ordusu ideyasının yenidən gündəmə gətirilməsi, “strateji hərbi muxtariyyət konsepsiyasının genişləndirilməsi, qitənin ABŞ-dan hərbi asılılığının azaldılması planı məhz bu məqsədə xidmət edir. Fransa və Almaniyanın liderliyi altında formalaşan bu xətt Avropanın sadəcə iqtisadi nəhəng deyil, həm də siyasi-hərbi aktor kimi varlığını təsdiqləmək cəhdidir.

C) Qlobal danışıqlarda əsas tərəf olmaq: Avropa qlobal proseslərin mərkəzində olmaq, Ukrayna, Cənubi Qafqaz, Afrika, Şərqi Asiya və Yaxın Şərq kimi regionlarda nizamlanma proseslərində əsas söz sahibi statusunu bərpa etmək istəyir. Bu səbəbdən Avropa ABŞ-ın Ukrayna sülh planlarına qarşı embarqo tətbiq edir, hətta bəzi diplomatik kanallar vasitəsilə bu planı sabotaj etməyə çalışır. Danimarkanın “ABŞ planı Avropaya təhdid yarada bilər” açıqlaması bunun bariz nümunəsidir.

Nəticə etibarı ilə, məlum olur ki, Avropa üçün əsas məsələ təhlükəsizlik problemi deyil - itirilmiş statusun yenidən əldə edilməsidir. “Köhnə qitə” özünü qütblərarası rəqabətdə üçüncü oyunçu kimi görmək istəmir. O, proseslərdə ABŞ-la bərabər səviyyədə olan qlobal aktor kimi yan-yana əyləşmək niyyətindədir. Bu ambisiya isə ABŞ-la ziddiyyətləri qaçılmaz edir.



### Yeni xəttin “qanunu”: birinci dərəcədən aşağı “kateqoriyaya”...

Sirr deyil ki, 2024-cü iil prezident seçkilərində əldə olunan qalibiyyət və Donald Tramp administrasiyasının hakimiyyətə gəlişi Vaşinqtonun xarici siyasət kursuna mühüm təsirləri ilə yadda qaldı - bunu hətta strateji xəttin dəyişməsi kimi də qiymətləndirmək olar. Bayden dövründə Vaşinqton daha çox ənənəvi Qərb modelində çıxış edirdi:

- Tərəfləri təzyiq altında saxlayan siyasi mexanizmlər mövcud idi;
- Regional qarşıdurmaların uzanmasında maraqlı olmaq prinsipi hökm sürürdü;
- Avropanın təklifləri tam şəkildə nəzərə alınırdı;
- Qərbin xüsusi “koalisiya bütövlüyü” və ya “koalisiya monolitliyi” ritorikası mövcud idi.

Lakin Trampın siyasətinin bəzi detalları bu xəttin tam əksini ortaya qoyur. Son 11 ayda ABŞ administrasiyasının 8 münaqişədə vasitəçi kimi çıxış etməsi, Yaxın Şərqdə 50 illik qarşıdurmanın müəyyən dərəcədə sabitliyə çevrilməsi, Afrikada və Asiyada Amerikanın rolunun yenidən dizayn edilməsi qlobal nizamlanmada böyük dəyişikliklər yaradır.

Bu dəyişikliklər isə fundamental şəkildə Avropanın maraqlarına ziddir. Çünki:

A) Avropa lokal toqquşmaların uzanmasında maraqlıdır: Bu, ona siyasi təsir dairəsini genişləndirmək imkanı verir. ATƏT, AŞPA, Avropa Şurası, digər qurumlar Avropanın “aktiv arbitrlik” alətləridir. Münaqişələr bitdikcə bu alətlər əhəmiyyətini itirir.

B) Yaxın Şərqdə yaranmış yeni sabitlik Avropanın enerji və siyasi strategiyasına zərbə vurur: Sabitlik ABŞ-ın bölgədə rolunu gücləndirir, Avropanı isə proseslərdən kənarda qoyur.

C) Afrika, Cənubi Qafqaz və Asiyada konfrontasiyaların azalması Aİ-nin təsir mexanizmlərini zəiflədir: Aİ illərdir bu regionlarda “qlobal nəzarətçi” rolunu oynayırdı. ABŞ-ın fəallaşması Avropanın oyun sahəsini daraldır.

Beləliklə, ABŞ-ın yeni xətti Avropanı koalisiya daxilində ikinci dərəcəli aktora çevirir. Bu isə Avropaya sərf etmir və ziddiyyətlərin kəskinləşməsinə səbəb olur.

### Harrisin “irsi”: Avropa niyə Trampı “istəmirdi”?



XXI əsrin ilk dördə birində Aİ-ABŞ münasibətləri bircins olmayıb - əksinə, münasibətlərdə qabarma-çəkilmə faktları kifayət qədər nəzərə çarpır. Amma 2025-ci ildə Vaşinqton-Brüssel xəttində disharmoniya daha qabarıq şəkildə özünü göstərir. Burada təkcə strateji maraq fərqləri deyil, həm də siyasi kontekstdən qaynaqlanan şəxsi və institusional faktorlar mövcuddur. Məsələn, ABŞ-da keçirilən 2024-cü il prezident seçkiləri dövrünü xatırlasaq, “köhnə qitə”nin aparıcı dövlətlərinin əsasən “demokrat xəttinə” tərəfdar olduğunu görmək mümkündür. Hətta Fransa prezidenti Makron seçkiyə bir neçə gün qalmış özünün mövqeyini açıq kontekstdə irəli sürmüşdü. Bir sözlə, 2024-cü il seçkilərində Avropa açıq şəkildə Kamala Harrisi dəstəkləyirdi və bunun altında yatan məqsədlərə nəzər salsaq:

- Harrisin prezident olacağı təqdirdə Aİ qlobal proseslərə daha çox müdaxilə imkanları qazana bilər, hətta qərb koalisiyasının Avropa siyasətində “nüvə funksiyasını” həyata keçirərdi. Aİ düşünürdü ki, Harrisin prezidentliyi dövründə ABŞ-ın gücü və “köhnə qitə”nin siyasi fəhmi yeni qlobal təsiretmə mexanizmi formalaşdıracaq
- Avropa Harris dövründə Ukrayna müharibəsinə yön verən aktor olmaq istəyirdi. Bu da təsadüfi deyildi. 2024-cü ilin sonuna qədər Bayden administrasiyası müharibənin inkişafında məhz hazırda Aİ-nin tutduğu mövqeni bölüşürdü. Təsadüfi deyildi ki, məhz bu dövrdə Avropanın silah istehsalı və biznesi pik həddə çatmışdı.
- Aİ ümid edirdi ki, Harrisin prezident seçiləcəyi təqdirdə Cənubi Qafqazdakı nizamlanma Avropanın şərtləri ilə aparılacaq. Cənubi Qafqaza qarşı həssaslıq isə regionun strateji əhəmiyyəti, Zəngəzur dəhlizinin gələcək iqtisadi nizamdakı mühüm yeri, şərq-qərb ticari xəttində oynadığı rolundan irəli gəlirdi. Aİ ABŞ-ın da yardımı ilə təzyiq mexanizmləri formalaşdıraraq (Bayden administrasiyası Cənubi Qafqazdakı tənzimləmə prosesinə Ermənistanın maraqları çərçivəsində yanaşırdı) bölgədə nəzarət formatı qurmaq istəyirdi. Regiona göndərilən Aİ missiyasının əsl “missiyası” da buradan qaynaqlanırdı. Aİ-Bayden administrasiyası qrupu Cənubi Qafqazda məhz özlərinin maraqlarına cavab verən konfiqurasiyanın yaranmasını arzulayırdı.

Lakin bu planlar boşa çıxdı. Harrisin məğlubiyyəti nəticə etibarı ilə Aİ-ni “dibsiz quyu”ya yuvarladı. Yeni dövrün ABŞ administrasiyası isə Avropanın qlobal ambisiyasını görür və onun təhlükəli istiqamətlərini dərk edir. Trampın yanaşmasına görə, Avropanın qlobal siyasətdə önə çıxması mövcud kataklizmləri daha da alovlandırmaq deməkdir. Məhz buna görə Tramp administrasiyası:

- Avropa Ordusu ideyasına qarşı birmənalı mövqe sərgiləmir;
- NATO-nun maliyyə yükünü öx üzərindən Avropaya transfer edir;
- Aİ-nin qlobal təsisat kimi rolunu zəiflətməyə çalışır.

Bu, birmənalıdır ki, Avropanın yeni geoiqtisadi strategiyası Tramp üçün məqbul deyil - misal yenə də Cənubi Qafqazdır. Aİ Cənubi Qafqazda, Zəngəzur dəhlizində, Şərq-Qərb ticarət arteriyasında dominant rol istəyirdi. Məhz bu səbəbdən konkret Fransanın əli ilə Ermənistanı dəstəkləyir, regionda sabitliyin formalaşmasını yubadırdı. Tramp isə bu planı “ABŞ maraqlarına təhlükə” kimi dəyərləndirdi və qəti şəkildə rədd etdi. Nəticədə, Avropanın post-2025 qlobal nizam planı tamamilə alt-üst oldu.

### Dominantlıq iddiası: güc və təsiretmə mexanizmlərinin “döyüşü”...

Bütün bu fikir ayrılıqları pazlın hissələri kimi birləşərək bütövlükdə bir mənzərə yaradıb - bu mənzərənin ən “barışmaz xətti” isə Rusiya-Ukrayna münaqişəsinə münasibətdir. Ukrayna müharibəsi günümüzdə ABŞ - Aİ ziddiyyətlərinin pik nöqtəsidir. Fərq göz önüdədir- ABŞ sülh danışıqları aparır, Avropa isə silahlandırır. ABŞ tərəfləri masa arxasına gətirmək üçün plan hazırlayır, Avropa isə Ukraynanı daha çox silahlandırmaq üçün 15 milyard avroluq paket təklif edir. Bunun ən real açması isə odur ki, Avropa danışıqlardan kənarda qalmaq istəmir. Aİ danışıqlar prosesində də dominant rolu iddia edirdi - Cenevrə danışıqları zamanı Aİ öz sülh planını təqdim etməyə çalışsa da, ABŞ bunu qəbul etmədi. Bu isə Brüsselin açıq narazılığına səbəb oldu. Real misallara müraciət edək: Almaniya Kansleri Fridrix Merts Avropa liderlərinin ABŞ Prezidenti Donald Trampla telefon danışığı zamanı ona münaqişənin həlli planının bir hissəsi olaraq Ukraynanın ərazi güzəştləri ilə bağlı təkliflərin təqdim edildiyini bildirib. Merts qeyd edib ki, “Avropalıları maraqlandıran hər bir məsələ bizim razılığımızı tələb edir. Avropalılar qorunmalıdır və biz bu məsələyə dair qərar qəbul edirik. Bu kontekstdə biz yaxın günlərdə əlavə koordinasiya danışıqları keçirməyi planlaşdırırıq”.

Və ya başqa bir misal: Aİ-nin xarici işlər üzrə ali nümayəndəsi və Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas Brüsseldə Aİ ölkələrinin xarici işlər nazirlərinin iclasında bildirmişdi ki, Rusiya və Ukrayna arasında hər hansı sülh razılaşmasının şərtləri həm Kiyevin, həm də Avropa İttifaqının razılığını tələb etməlidir. O qeyd etmişdi ki, heç bir sülh planı avropalıların razılığı olmadan işləyə bilməz. Aİ-nin isə iki bənddən ibarət planı var: biri Rusiyaya təzyiq göstərmək və onu zəiflətmək, digəri isə Ukraynanı dəstəkləmək. Bu, isə Vaşinqtonun planları ilə uzlaşmır.

Qənaət budur ki, Vaşinqton Aİ-ni artıq güc mərkəzi kimi qəbul etmir və ya etmək istəmir. Tramp administrasiyası Avropanın proseslərə təsir imkanlarını minimuma endirməyə çalışır. Hətta administrasiyanın keçmiş üzvlərindən olan İlon Maskın Aİ ilə bağlı fikirləri də maraq doğurur. O bildirib ki, “Avropa İttifaqını aradan qaldırmaq lazımdır, suverenlik isə ayrı-ayrı ölkələrə qaytarılmalıdır ki, hökumətlər öz xalqlarını daha yaxşı təmsil edə bilsin. Avro bürokratiya Avropanı yavaş-yavaş, ölüm həddinə qədər boğur”.

Görünən budur ki, artıq fikir ayrılığı özündə qarşıdurma elementləri daşıyır.

- informasiya müharibəsi,
- diplomatik gərginlik,
- enerji sisyasətində ziddiyyət,
- qlobal proseslərdə paralel planların hazırlanması,
- hərbi-siyasi koalisiyalarda maraqların toqquşması.

Bütün bunlar Qərb daxilində gərginliyin sistemli xarakteri aldığını göstərir.

### Səbəb və nəticə: Zaman ən yaxşı tənzimləyicidir...

Ən arzuolunmazı isə budur ki, ABŞ - Avropa ziddiyyətləri yaxın illərdə daha dərin və daha sərt geopolitik nəticələr doğura bilər. Fikir ayrılığı artıq sadə siyasi diskursdan çıxaraq strateji qarşıdurma elementləri qazanıb. Qərb koalisiyasının daxilində “vahid mövqe” anlayışı real gücünü itirir, liderlik uğrunda rəqabət güclənir, qlobal nizamlanma mexanizmləri paralel bloklara parçalanır.

Bir çox siyasətçilər bildirirlər ki, bu proses nə Qərbin özünə, nə də qlobal sabitlik sisteminə fayda gətirməyəcək. Lakin bütün geosiyasi ziddiyyətlərdə olduğu kimi, zaman və dəyişən beynəlxalq şərtlər müəyyən məqamlarda problemlərin yumşalmasına da zəmin yarada bilər. Qərb koalisiyasının gələcək taleyi məhz bu ziddiyyətlərin necə idarə olunacağından asılı olacaq.

*Pərviz SADAYOĞLU*

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# ŞƏNBƏ ÜÇÜN NƏZM





Coşur məzarında güllərdən dəniz -
Varaqlar üstündə qələm hönkürür,
Təkcə Azərbaycan qalmadı Sənsiz -
Öndər, yoxluğuna aləm hönkürür.

Cənnətin göylərin yeddi qatında,
Yerə zülmət çökər Günəş batanda,
Çox doğma olsa da zarafatın da -
Bu gün o da qoymur güləm, hönkürür.

Adın milyon-milyon sevən ürəkdə,
Çağırışın yumruqlu qolda, biləkdə,
Deyir qəbrin üstə bitən çiçək də -
“Düşünmə bəxtəvər güləm”, hönkürür.

Heyrət timsalıydı Səndəki dözüm,
Nur oldun içində alovun, közün,
Yaşıdım ixtiyar - gizlədir gözün,
İstəmir səbəbin biləm, hönkürür.

Öndər, Sənə görə belə güclüyük,
İndi iradəli ölkəyik, elik,
Olsa da hamıdan evimdə kiçik -
Çəkilib gizlinə nəvəm, hönkürür.

Coşur məzarında güllərdən dəniz -
Varaqlar üstündə qələm hönkürür,
Təkcə Azərbaycan qalmadı Sənsiz -
Öndər, yoxluğuna aləm hönkürür...

**Vahid ƏZİZ,**
**Xalq şairi**
**12 dekabr 2003-cü il**

***

Azadlıq allahı tək əyləşib öz yerində,
Yerin-göyün nuru var
peyğəmbər gözlərində.
Sadəliyi nur saçır, əzəməti dərində.
Gedir, polad çiynində Kəpəz,
Qoşqar boyda yük.
Dədə Heydər - Atatürk.

Dərin mavi gözləri sakit yanan od-ocaq,
Alovunda satqınlar yanacaq, kül olacaq.
Qaranlıqda işıqdır - o işığa yol açaq.
Məsləki varlığından böyükdür,
min qat böyük.
Böyüklük heykəlidir Dədə Heydər -
Atatürk!

Dörd tərəf qar-qiyamət, sərt qış...
o, güllü yazdır,
Dinc, mülayim səsi də qaynar bir ehtirasdır.
Ərzurumdan Xəzərə şığıyan Xan Arazdır.
Dalğasında dönüklər ağ köpükdür,
boz köpük,
Dalğalanır nəhr tək Dədə Heydər - Atatürk.

Azərbaycan, Türkiyə... Daş qala -
qoşa səngər,
Bütün qasırğalara birləşməklə sinə gər.
Bu birlik qarşısında düşmən tük salacaq,
tük...
Qucur iki sahili Dədə Heydər - Atatürk.

**Xəlil Rza Ulutürk**

***

Vətən oğlu, ata oldun bizə sən,
Ata kimi qayğımızı çəkirdin.
Şair kimi həssas idin sözə sən,
Danışıqda sözdən sözü çəkirdin.
Ölkə olduq sən arzuna çatanda,
Bir əlin od, bir əlin su olurdu.
Millət rahat xumarlanıb yatanda,
Yuxun bir an quş yuxusu olurdu.

Yurdumuzda şan-şöhrətli hər nə var
Yatmadığn günlər, aylar, illərdi;
Ziyarətə gəlir səni bu yollar...
Göz yaşımız məzarında güllərdi.

Sənin rəmzin Azərbaycan bayrağı,
Baş qoymağa, can verməyə hazırıq.
Dan ulduzum - yurdumuzun mayakı,
Şer də bir təsəllidir, yazırıq.

Adın-sanın yenilməz bir ordudu,
İndi odlar diyarının özüsən...
Azərbaycan Heydərlərin yurdudu,
Gələcəyə baxanların gözüsən.

**Fikrət Qoca**

***

Azərbaycan adını,
Azərbaycan xalqını,
Dünyaya tanıtdıran,
Heydər atamız oldu.

Sinəndə köz də yansa,
Dilində söz də yansa,
Qarşında kim dayansa,
Yaşa, ey odlar yurdu.

Tanrı sənə yetirib,
Heydər kimi bir oğlu.
Keşiyində dayanıb
Basılmaz, igid ordu.

Damarında türk qanı
Axan Heydər özüdür.
Bütün türk dünyasında,
Atatürklə özüdür.

**Zəminə Bayramova**

***

Heykəlinə baxıram
Rəhbər xəyala dalıb.
Çiçəklənən ölkəmiz
Ondan yadigar qalıb.

Səsini dinləyəndə
Güc gəlib qolumuza.
Zəkası günəş kimi
Nur səpib yolumuza.

Doğma Azərbaycanı
Gülüstana döndərib.
Hamımızın qəlbində
Heykəli var öndərin.

**Rafiq Yusifoğlu**

***

Xalqımızın fəxri, şanı,
Xatırlayım hansı anı?..
Dolanmısan bu dünyanı,
Heydər ata, Heydər baba!..
Vətənimi azad edən,
El qədrini daim bilən.
Torpağını qəlbən sevən
Heydər ata, Heydər baba!

Həm ümmansan, həm də Günəş,
Sübh çağının dan ulduzu.
Qəlbimizdə ən müqəddəs
Heydər ata, Heydər baba!

İlham təki oğlun vardır,
Ömür yolun bir bahardır,
Xalqın hər an bəxtiyardır,
Heydər ata, Heydər baba

Keçsə aylar, keçsə illər
Ürəklərdə qalacaqsan.
Arzuların çiçək açıb,
Yaşayacaq Azərbaycan!
Heydər ata, Heydər baba!

**N. Laçınov**

***

Gəlişinlə qurtulubdur bu vətən,
Sən oldun bu xalqa ümid və güvən.
Sən oldun dar gündə köməyə yetən,
Ulu bir sərkərdə, ulu bir öndər.

Ucaltdı hər yerdə bayrağımızı,
Yazdı tarixlərə ad- sanımızı.
Tanıtdı dünyada varlığımızı,
Ulu bir sərkərdə, ulu bir öndər.

Hara baxırsansa nişanələri,
Özündən sonrakı abidələri.
Bizləri tərk etmir xatirələri
Ulu bir sərkərdə, ulu bir öndər.

**Qabil Ədalət**

***

Bilirəm ki, dünənimiz bu günün
keçmişi deyil,
Hər dövürdə bir şəxsiyyət
tarixin vərdişi deyil,
Bir ölkəni xilas etmək bir insanın işi deyil,
Allah səni öz nurundan yaratmışdı
Heydər baba.

Gəlişilnə yoxa çıxdı mərmi yağış,
balta külək,
Gedişində ağlayırdı yerdə insan,
göydə mələk,
Hələ yanan ocaqların istiliyi varsa, demək,
Allah səni öz nurundan yaratmışdı
Heydər baba

Heydər dedim coşdu qələm,
cənnət-məkan oldu sinəm,
Heydər dedim susdu bulud,
güldü günəş, doldu sinəm,
Heydər adlı zirvələrə-haqqa
gedən yoldu sinəm,
Allah səni öz nurundan
yaratmışdı Heydər baba.

Bu torpağı, bu milləti canından da
çox sevirdin,
Ayağını basan yerdə-daş üstündə
gül bitirdin,
Özün getdin, öz xalqına özün kimi
oğul verdin,
Allah səni öz nurundan yaratmışdı
Heydər baba.

Yer topunun sir boxçası rəngsiz,
donsuz göylərdədir,
Xeyir-duan üstümüzdə,
ruhun sonsuz göylərdədir,
Göydən gəldin, göyə döndün,
yerin onsuz göylərdədir,
Allah səni öz nurundan yaratmışdı
Heydər baba.

**Elşad Barat**

# Beynəlxalq mübahisələrin həlli...

## 105 il əvvəl BMT-nin ali məhkəmə orqanı yaranıb

*Yeganə BAYRAMOVA*

Ötən əsrdə baş verən iki dünya müharibəsi bəşəriyyətə çox böyük itkilər hesabına başa gəldi. Bununla da beynəlxalq miqyasda sülhü və təhlükəsizliyi qoruyub saxlamaq, beynəlxalq mübahisələrin və münaqişələrin dinc vasitələrlə və ədalətlə nizama salınmasını təmin etmək üçün beynəlxalq bir təşkilatın yaradılmasına ehtiyac var idi.

**Daimi Beynəlxalq Ədalət Məhkəməsi**

Bu gün Daimi Beynəlxalq Ədalət Məhkəməsinin (DBƏM) yaranmasından 105 il ötür. Mübahisələrin sülh yolu ilə həlli üçün nəzərdə tutulmuş ilk beynəlxalq məhkəmə orqanı Millətlər Birliyinin himayəsində 1920-ci ildə yaradılan Daimi Beynəlxalq Ədalət Məhkəməsi idi. Palata Millətlər Birliyi tərəfindən yaradılıb və maliyyələşdirilib. Bununla birlikdə Palata Liqanın bir hissəsi deyildi. Liqaya üzv olan bir dövlət avtomatik olaraq DBƏM nizamnaməsinə tərəf çevrilməmişdi. Digər tərəfdən, bu müqavilələrlə əlaqəli mübahisələrdə PPMP-nin yurisdiksiyasını təmin edən bir neçə yüz müqavilə imzalanmışdı.

**Beynəlxalq Ədalət Məhkəməsinin yaradılması**

1922-1940-cı illər arasında DBƏM 29 dövlət mübahisəsinə qərar vermişdi və demək olar ki, hamısı həyata keçirilmiş 27 məsləhət rəyi vermişdi. Palata beynəlxalq hüququn inkişafına da böyük töhfə verib. Fəaliyyəti İkinci Dünya müharibəsi ilə sona çatdı və daha sonra 1946-cı ildə Millətlər Birliyi ilə birlikdə Palata ləğv edildi. Palatanın yerinə isə Birləşmiş Millətlər Təşkilatının (BMT) Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) yarandı.

Beynəlxalq Ədalət Məhkəməsi BMT-nin ali məhkəmə orqanıdır. Onun qərargahı Niderlandın Haaqa şəhərindəki Sülh Sarayında yerləşdir. Məhkəmənin iş prinsipi geniş məhkəmə fəaliyyəti ilə xarakterizə olunur. Onun əsas vəzifələri dövlətlərə təqdim edilmiş hüquqi mübahisələrin həlli və lazımi qaydada səlahiyyətli beynəlxalq orqanlar və qurumlar tərəfindən ona təqdim edilmiş hüquqi məsələlər üzrə məsləhətçi rəy verməkdir. Beynəlxalq Məhkəmə tərəfindən qəbul edilən qərarların sayı nisbətən az idi, lakin 1980-ci ildən başlayaraq, xüsusən də inkişaf etməkdə olan ölkələr arasında Məhkəmədən istifadə etmək istəyi açıq şəkildə ortaya çıxmışdı.

**Bir dövləti eyni vaxtda iki hakim təmsil edə bilməz**

Beynəlxalq Məhkəmə vətəndaşlıqlarından asılı olmayaraq, yüksək mənəvi keyfiyyətlərə malik olan şəxslərdən seçilmiş və müstəqil hakimlər kollegiyasını təşkil edən 15 nəfərdən ibarətdir. Beynəlxalq Məhkəmənin hakimləri əsasən, BMT-nin üzv dövlətlər arasından seçilir. BMT-in Baş Assambleyası və BMT-nin Təhlükəsizlik Şurası 15 hakimi ayrı-ayrılıqda müstəqil şəkildə seçir. Hakimliyə namizədlər həm Baş Assambleyada, həm də Təhlükəsizlik Şurasında birgə topladıqları səs sayına görə seçilirlər. Əgər bir dövlətin bir neçə namizədi çox səs toplayıbsa, onların ən yaşlısı hakim seçilir. Hər bir hakim ayrı-ayrı ölkənin vətəndaşı olmalıdır, yəni bir dövləti eyni



vaxtda iki hakim təmsil edə bilməz. Seçim zamanı namizədlərin təkcə göstərilən tələblərə uyğunluğu deyil, həm də onların hansı hüquq sistemini təmsil etməsi də nəzərə alınır.

**Seçkilər hər 3 ildən bir keçirilir**

Seçilmiş hakimlər öz hüquqlarından 9 il müddətində istifadə edə bilərlər. Yəni hakimlər 9 illiyinə seçilirlər. Hakimlərin 9 illik seçilməyinə baxmayaraq, seçkilər hər 3 ildən bir keçirilir və hər seçkidə 5 köhnə hakimi yeniləri əvəz edir. Statut hakimlərə yenidən seçilmək hüququ da verir. Seçilən hər bir hakim diplomatik toxunulmazlığa malik olur və elmi, pedoqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir işlə məşğul ola bilməzlər.

**Ölkəmizin lehinə qərarlar...**

Qeyd edək ki, son illər Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın ölkəmizə qarşı olan əsassız iddialarını rədd edib. Ermənilər və havadarlarından başqa heç bir təşkilat, yaxud dövlət Qarabağda yaşayan ermənilər üçün hansısa bir problem yaşandığını ortaya qoya bilməyib. Rəsmi Bakı bununla bağlı dəfələrlə müxtəlif kadrlar, o cümlədən videogörüntülər təqdim edib.

Xatırladaq ki, 7 dekabr 2021-ci il tarixində Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın, o cümlədən Ermənistan ərazisində fəaliyyət göstərən və azərbaycanlıları hədəf alan fərdlər və təşkilatlar tərəfindən irqi nifrətin təşviq etməsini qadağan edən müvəqqəti tədbirlərə dair Azərbaycanın vəsatətini təmin edib.

2023-cü il aprelin 21-də isə Azərbaycan tərəfi “İrqi Ayrı-seçkiliyin Bütün Formalarının Ləğv edilməsi haqqında” “ Konvensiya çərçivəsində Ermənistan tərəfindən Azərbaycana qarşı qaldırılmış əsas iddiaya qarşı ilkin etirazlarını Beynəlxalq Ədalət Məhkəməsinə rəsmi təqdim edib. Azərbaycanın qeyd edilən ilkin etirazları ilə əlaqədar Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın əsas iddia sənədinə baxılmanı dayandırıb.

**Ermənistanın 10 iddiasından 7-si rədd edilib**

Beynəlxalq Ədalət Məhkəməsi, eləcə də 2023-cü il noyabrın 17-də Ermənistanın Azərbaycana qarşı 10 iddiasından 7-sini rədd edib. Məhkəmə öz qərarında Azərbaycanın Qarabağ üzərində suverenliyini və ərazi bütövlüyünü təsdiqləyib, Azərbaycanın hərbi və hüquq-mühafizə orqanlarının Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız və gülünc tələbini rədd edib. Həmçinin qərara əsasən, Azərbaycan hökumətinin Qarabağın erməni sakinləri ilə bağlı artıq bəyan olunmuş siyasəti qəbul edilib. Bu, milli və ya etnik mənşəyindən asılı olmayaraq bütün sakinlərin təhlükəsizliyini və mühafizəsini təmin etmək barədə Azərbaycanın öhdəliyini əhatə edir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4826**
**Sifariş: 2516**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova